YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 aprel 2025-ci il Çərşənbə axşamı № 57 (8667) Qiyməti 60 qəpik

**Xəbər**

**Bitməyən mina terroru: iki gündə 1 şəhid, 4 yaralı - nə etməli?**

yazısı səh.5-də

**Gündəm**

**Ölkə rəhbərliyi Antalyaya gedir**

ANTALYA DIPLOMACY FORUM

Azərbaycanı forumda təmsil edəcək şəxslər - siyahı

yazısı səh.3-də

**Rusiya-Azərbaycan münasibətlərində yeni mərhələ**

yazısı səh.8-də

**Babayan etiraf etdi: "İnteqrasiyanın əleyhinə idik..."**

yazısı səh.4-də

**Sərhəd təxribatlarının arxasındakı üç hiylə**

yazısı səh.6-da

**CHP-də seçki: Ərdoğanın rəqibi dəqiqləşdi?**

yazısı səh.11-də

**Məşhur "Şəki Qala" tarixə qovuşur - reportaj**

yazısı səh.15-də

**Putin müharibəni buna görə dayandırmır - sensasion gəlişmə**

yazısı səh.14-də

**İran üzərində "qara buludlar" sıxlaşır**

yazısı səh.13-də

**Kiberdələduzluqla mübarizədə mühüm yenilik**

yazısı səh.7-də

**Trampın siyasəti ABŞ-ı, yoxsa dünya iqtisadiyyatını dağıdacaq...**

yazısı səh.12-də

**Ərindən boşanmaq istədi, qulağından oldu - boşanma mədəniyyətimizlə bağlı suallar**

yazısı səh.5-də

# SÜLH MÜQAVİLƏSİ ÜÇÜN KRİTİK GÜN - CƏMİ BİR SAATA...

Mütəxəssislərə görə, İrəvan Bakının əsas şərtini qısa zamanda reallaşdıra bilər; Paşinyanın əlində unikal imkan var



yazısı səh.9-da

# Evlərimizə girən dəhşətli xəstəlik: bu məhsulları almayın!

Kolbasa şirkətləri əhaliyə nə yedirir? "Bu müəssisələr qapıları bağlı, heç kimin nəzarət edə bilmədiyi bir yerə çevrilib..."

yazısı səh.10-da




*Sabiq nazir:*

**"Paşinyan bu cür beş sənədə imza atsa belə..."**

yazısı səh.6-da



**Primakov Bakıdakı "Rus evi"ndən əl çəkmir**

yazısı səh.3-də




*Deputat:*

**"Ermənistan "etnik təmizləmə" mövzusunu bağlamalıdır"**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# Britaniyadan çağırış: "Azərbaycanın Ermənistanla sərhəd bölgələrinə getməyin"



**Böyük Britaniya Xarici İşlər Nazirliyi (FCDO) ölkə vətəndaşlarına Azərbaycanın cənub-qərbinə - Ermənistanla sərhədyanı bölgələrə getməməyi tövsiyə edib. Teleqraf xəbər verir ki, bununla bağlı Britaniya hökumətinin saytında məlumat dərc olunub.**

"Ermənistanla sərhəd bağlıdır. FCDO Azərbaycanl Ermənistan arasındakı gərginliklər səbəbindən Ermənistanla sərhədin 5 kilometrindən yaxın ərazilərə səyahət etməməyi tövsiyə edir", - məlumatda bildirilib.

Vurğulanıb ki, bu tövsiyə 2020 və 2023-cü illərdə münaqişədən təsirlənmiş bölgələri - Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa, Xocalı, Xankəndi, Ağdam və Tərtər rayonlarını əhatə edir. Səyahət xəbərdarlığı Azərbaycanın Naxçıvan istiqamətində Ermənistanla sərhədinə aid deyil. Britaniya Xarici İşlər Nazirliyinin açıqlamasına hələlik Azərbaycanın rəsmi qurumları münasibət bildirməyib.



## Sahibə Qafarova Özbəkistan Prezidenti ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin prezidenti Şavkat Mirziyoyevlə görüşüb. Musavat.com xəbər verir ki, Parlamentlərarası İttifaqın 150-ci Assambleyası çərçivəsində baş tutan görüşdə ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsindən məmnunluq qeyd edilərək, əlaqələrimizin inkişafında hər iki ölkənin prezidentlərinin xüsusi rolu vurğulanıb. Ali və yüksək səviyyəli səfərlərin ölkələrimiz arasında münasibətlərin daha da inkişafında xüsusi əhəmiyyət kəsb etdiyi qeyd edilərək, bildirilib ki, bu səfərlər və sıx təmaslar iki dost və qardaş ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar yaradır.**

Söhbət zamanı parlamentlərimizin də ölkələrimiz və xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin ruhuna uyğun olaraq, geniş əməkdaşlıq əlaqələrinə malik olmasından məmnunluq ifadə edilib. Bunun insanlarımız arasında təmasların daha da sıxlaşdırılması üçün vacibliyi diqqətə çatdırılıb.

Milli Məclisin sədri Özbəkistan paytaxtının Parlamentlərarası İttifaqın 150-ci Assambleyasına yüksək səviyyədə evsahibliyi etdiyini qeyd edərək, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin dördüncü konfransı haqqında da məlumat verib. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərlə də bağlı fikir mübadiləsi aparılıb.

## Bakıda 53 evin qaz sayğacı oğurlandı

**Bakının Xəzər və digər rayonlarında silsilə oğurluq hadisəsi qeydə alınıb. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, paytaxt sakinləri olan 53 nəfər zərərçəkən mənzillərindən qaz sayğaclarının talanması barədə polisə müraciət ediblər. Xəzər Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd olunan cinayət əməllərini törətməkdə şübhəli bilinən Abbas Əliyev və Bayram Hüseynov saxlanılıblar.**

Araşdırmalarla məlum olub ki, həmin şəxslər müxtəlif vaxtlarda adətən gecə saatlarında çıxarışı olan evlərdən qaz sayğaclarını oğurlayaraq çıxarışı olmayan mənzillərin sahiblərinə satıblar. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. A.Əliyev və B.Hüseynovun digər analoji cinayətlərdə iştirakının olub-olmaması istiqamətində araşdırmalar aparılır.

## Vahid Əhmədovun oğlu hakim təyin ediləcək

**Sabiq deputat Vahid Əhmədovun oğlu yeni vəzifəyə təyin ediləcək. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin aprelin 7-də keçirilən iclasının gündəliyinə daxil edilən layihəyə əsasən, Zəfər Vahid oğlu Əhmədov Bakı Apelyasiya Məhkəməsinə hakim təyin ediləcək. Qeyd edək ki, Zəfər Əhmədov 6 iyul 2024-cü ilədək Qaradağ rayon prokuroru vəzifəsində çalışıb.**

## Mövqelərimiz yenə atəşə tutuldu

**Aprel 6-sı axşam saatlarından aprelin 7-si saat 04:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus, Qarakilsə, Basarkeçər, Keşişkənd, Tovuzqala və Çəmbərək rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə intensiv atəşə tutub. Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.**

## Əbil Ağasiyev vəzifəsindən kənarlaşdırıldı

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədr müavini Əbil Ağasiyev vəzifəsindən azad edilib. Pravda.az xəbər verir ki, Konfederasiyanın sədri Sahib Məmmədov bununla bağlı müvafiq əmr imzalayıb. Bir müddət öncə Ə.Ağasiyevin rəhbərlik etdiyi "Kurort" Qapalı Səhmdar Cəmiyyəti "Turizm və Ekskursiyalar" Şurası ilə birləşdirilib. Qurumların bazasında Kurort-Turizm Mərkəzi yaradılıb və Ağasiyev rəhbərlikdən kənarlaşdırılıb.**

"Kurort" QSC-nin balansına "Abşeron" mədə-bağırsaq, "Bilgəh" kardioloji, "Qaranquş" uroloji, "Günəşli" nevroloji, "Şıx", "Naftalan", "Pirşağı", "Xəzər", "Şəki İstirahət Mərkəzi", "Hacıkənd" İstirahət Evi, "Avtonəqliyyat" müəssisəsi, "Azərkurorttikintitəmir" Birliyi, "Azərkurortlayihə", Azərminsugeokaptaj" respublika ekspedisiyası, "Kurort" Səhmdar Cəmiyyətinin Təchizat Birliyi və "Miras" Məhdud Məsuliyyətli Cəmiyyəti daxil idi. Ona görə Ə.Ağasiyev mətbuatda "kurort naziri" adlandırılırdı.

## Bu gün 31 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında aprelin 8-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, səhər bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 12-16° isti, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65 %, gündüz 40-45% olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə isə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-15° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20°, bəzi yerlərdə 23° isti olacaq.

## Həbs edilən "Melissa Group" rəhbərindən xəbər var




**Vətəndaşın evinin qanunsuz sökülməsi ilə bağlı həbs edilən "Melissa Group" tikinti şirkətinin sahibi Qalib Məmmədov barəsindəki qərardan apelyasiya şikayəti verməyib. Qalib Məmmədovla birgə həbs edilən ekskvator sürücüsü Qala Eynullayev də rəhbəri kimi şikayətçi olmayıb.**

Belə ki, hər iki şəxs barəsində Xətai Rayon Məhkəməsi tərəfindən 1 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Onlar qərar qəbul edilən gündən 3 gün ərzində şikayət vermə hüququna malik olublar. Qeyd edək ki, hər iki şəxsə Cinayət Məcəlləsinin 186.2.1(özgənin əmlakını qəsdən məhv etmə, zərərçəkmişə külli miqdarda zərər vurma) maddəsi ilə ittiham verilib.

Xatırladaq ki, birinci instansiya məhkəməsində Qalib Məmmədov barəsində həbs-qətimkan tədbiri ilə bağlı təqdimata baxılarkən ev dustaqlığına çıxmaqla bağlı vəsatət verilmişdi, lakin məhkəmə vəsatəti təmin etməmişdi.

## Astarada bədbəxt hadisə: saxlanan var

**Astarada fiziki qüsurlu yeniyetmə bədbəxt hadisə nəticəsində ölüb. APA-nın verdiyi xəbərə görə, hadisə Astara rayonu Kijəbə qəsəbəsində qeydə alınıb.**

Anadangəlmə fiziki qüsurlu 13 yaşlı Z.K. əmisi Vasif Kazımovun idarə etdiyi "UAZ" markalı avtomobillə vurulub. İlkin məlumata görə, avtomobil geriyə hərəkət edən zaman əlil arabasında olan yeniyetməni vurub.

Xəsarət alan yeniyetmə Lənkəran rayon mərkəzi xəstəxanasına çatdırılsa da, həkiməqədər ölüm faktı qeydə alınıb. Meyit Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayon şöbəsinə təhvil verilib. Hadisəni törətməkdə şübhəli bilinən V.Kazımov polisə təslim olub. Faktla bağlı Astara Rayon Prokurorluğunda araşdırma aparılır.

## Uşaqların I sinfə qəbulu başlayır

**1 may saat 11:00 dan etibarən 2025-2026-cı tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilir. Qəbul prosesi www.mektebeqebul.edu.az portalı vasitəsilə aparılacaq. Uşaqların birinci sinfə elektron qəbulu ölkənin bütün şəhər və rayonlarının ümumi təhsil müəssisələrini əhatə edir. Qeyd edək ki, bu il Azərbaycan bölməsi üzrə 85 minə yaxın uşaq məktəbəhazırlıq qrupundan avtomatik olaraq I sinfə keçiriləcək.**

## Narkotikin təsiri altında avtoxuliqanlıq etdi, həbs edildi

**Bakı şəhərində narkotik vasitənin təsiri altında avtoxuliqanlıq hərəkətləri edən motosiklet sürücüsü həbs edilib. Bu barədə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi məlumat yayıb. Bildirilib ki, Bakı Şəhər DYP İdarəsinin əməkdaşları tərəfindən "Honda" markalı, 99-D-401 dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsinin sürücüsü Ceyhun Mustafayev paytaxt ərazisində yol hərəkəti qaydalarını davamlı şəkildə pozaraq digər hərəkət iştirakçılarının da sağlamlığı üçün real təhlükə yaratdığı üçün saxlanılıb.**

Sənədləri yoxlanılan zaman sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin olunub. Müayinə zamanı C.Mustafayevin narkotik vasitə qəbul etməsi də müəyyən olunub. Sürücü barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən inzibati protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə C.Mustafayevin sürücülük hüququ 1 il müddətinə məhdudlaşdırılıb və o, 1 ay inzibati qaydada həbs edilib.

## Naxçıvanda idarə işçisi intihar etdi

**Naxçıvanda 39 yaşlı kişi intihar edib. APA xəbər verir ki, hadisə şəhərin 36-cı məhəlləsində baş verib. Burada kirayə yaşayan 1986-cı il təvəllüdlü Adəm Həziyev evdə intihar edib. A.Həziyevin Naxçıvan Təmizlik İdarəsinin işçisi olduğu bildirilir. Faktla bağlı Naxçıvan Şəhər Prokurorluğunda araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# Azərbaycan rəhbərliyi Antalya Diplomatiya Forumuna gedir

## Türkiyədə keçiriləcək toplantıda ölkəmizi kimlər təmsil edəcək? - siyahı




**Məlum olduğu kimi, 11-13 aprel tarixlərində Türkiyənin Antalya şəhərində ənənəvi Antalya Diplomatiya Forumu keçiriləcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın himayəsi və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin ev sahibliyi ilə keçiriləcək budəfəki forum "Bölünmüş dünyada diplomatiyanın bərpası" mövzusuna həsr olunub. Azərbaycan nümayəndə heyətinə Prezident İlham Əliyev rəhbərlik edəcək.**

Musavat.com forumun rəsmi saytında yer alan məlumata əsasən xəbər verir ki, nümayəndə heyətinə aşağıdakı rəsmi şəxslər daxildir:

Birinci vitse-prezident Mehriban Əliyeva;

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev;

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov;

Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev;

Xarici işlər naziri Ceyhun Bayramov;

Xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev;

Müdafiə naziri Zakir Həsənov;

Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov;

Millət vəkilləri Əhliman Əmiraslanov, Əziz Ələkbərov, Nigar Arpadarai, Ramil Həsən, Səməd Seyidov;

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev.

Türkiyə Xarici İşlər Nazirliyi Azərbaycan KİV rəhbərlərindən bəzilərini də forumun işini müşahidə etmək üçün dəvət edib.

Qeyd edək ki, Antalya Diplomatiya Forumu diplomatiyanın kursu necə dəyişdirə biləcəyini araşdırmaq və bölünmüş dünyada kollektiv fəaliyyət üçün ümumi zəmin tapmaq üçün qlobal liderləri, siyasətçiləri, alimləri, biznes ekspertlərini, media və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirəcək. Forum getdikcə qütbləşən mühitdə diplomatiyanın rolunu və əsas prinsiplərini yenidən müəyyən etmək üçün dialoqa ilham vermək məqsədi daşıyır.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**




# Bakıdakı "Rus evi" fəaliyyətini bərpa edəcək? - Primakov nikbindir

**"Rusiya və Azərbaycan Bakıdakı Rus Evi məsələsində kompromis axtarır, hamı konstruktiv və nikbindir". Musavat.com xəbər verir ki, bunu "Rossotrudniçestvo"nun rəhbəri Yevgeni Primakov deyib. "Həm Azərbaycan tərəfi, həm də biz konstruktiv və kifayət qədər nikbinik ki, kompromis tapacağıq və tammiqyaslı iş bərpa olunacaq", - o bildirib.**

Qeyd edək ki, Azərbaycan hökuməti, Bakıdakı "Rus evi"nin (Rossotrudniçestvo) fəaliyyətinə xitam verilməsi ilə bağlı Rusiyaya rəsmi bildiriş göndərib. Bu qərarın əsas səbəbi "Rus evi"nin Azərbaycan qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs kimi qeydiyyatdan keçməməsidir. Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə fevralın 3-də Rusiya tərəfinə nota göndərildiyini təsdiqləyib və qeyd edib ki, "Rus evi"nin qeydiyyatsız fəaliyyəti ölkə qanunlarının ciddi şəkildə pozulması deməkdir.

"Rusiya Bakıdakı "Rus evi" ətrafında yaranmış vəziyyətin həlli ilə bağlı təklifləri Azərbaycan tərəfinə çatdırıb və konstruktiv qarşılıqlı yanaşma gözləyir". Bunu isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə demişdi. "Mövcud vəziyyətin həlli ilə bağlı (Bakıdakı "Rus evi" ətrafında - qeyd) təkliflərimiz tərəfdaşlarımıza çatdırılıb. Biz Azərbaycan tərəfinin konstruktiv yanaşmasına və hansısa kompromis həllin tezliklə əldə olunmasına ümid edirik", - deyə o, fikrini yekunlaşdırıb.

# Türkiyə ilə ticarətimiz azalıb? - Rəqəmlərin arxasındakı gerçək

## Satış mağazaları onlayn platformalarla rəqabət apara bilmir



**Bu ilin yanvar-fevral aylarında Azərbaycan Türkiyədən geyim idxalını 7,503 milyon dollara qədər azaldıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24,9% azdır. Bu haqda Türkiyə İxracatçılar Şurası bildirir.**

Fevralda Türkiyə Azərbaycana 3,895 milyon dollar dəyərində geyim tədarük edib ki, bu da 2024-cü ilin fevral ayı ilə müqayisədə 27,1% azdır. Ümumilikdə, 2025-ci ilin ilk iki ayında Türkiyənin geyim ixracının dəyəri 5% azalaraq 2,77 milyard dollar, fevralda isə 9,3% azalaraq 159 milyard dollar təşkil edib.

Dövlət Gömrük Komitəsinin yanvar ayına olan məlumatına görə, bu ilin yanvar ayında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin ümumi həcmi 2024-cü ilin eyni dövrünə nisbətdə 1,6 faiz artaraq 483,2 milyon dolları üstələyib.

Azərbaycandan Türkiyəyə ixrac: 308 milyon dollar (+1 faiz)

Türkiyədən Azərbaycana idxal: 175,1 milyon dollar (+2,8 faiz)

Cari ilin ilk ayının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Türkiyə ilə ticarətin payı 9,49 faiz təşkil edib.

O ki qaldı digər sahələrə, bu ilin yanvar-fevral aylarında Azərbaycan Türkiyədən 2,861 milyon ABŞ dolları dəyərində meyvə və tərəvəz məhsulları idxal edib. Türkiyə İxracatçılar Şurasının rəsmi məlumatına əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 25,4% azdır. Təkcə fevralda isə Türkiyə Azərbaycana 1,584 milyon ABŞ dollarlıq meyvə və tərəvəz məhsulları ixrac edib ki, bu da 1 il əvvələ nisbətən 29,8 % azdır. İki ayda Türkiyənin meyvə və tərəvəz məhsulları ixracının ümumi dəyəri illik müqayisədə 12,1% azalaraq 410 milyon ABŞ dollarına, fevralda isə 14,8% azalaraq 199 milyon ABŞ dollarına enib.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz bir neçə gün öncə mətbuata açıqlamasında bildirib ki, regionda və qlobal miqyasda mürəkkəb şəraitə baxmayaraq, Türkiyənin ixrac həcminin artım tendensiyası davam edir. Onun sözlərinə görə, ayrı-ayrı ölkələrin proteksionizm istəyinə baxmayaraq, Ankara ixracatçı şirkətlərə dəstək kursunu davam etdirir, o cümlədən onların yeni bazarlara çıxmasını stimullaşdırmaq və yerli malların rəqabət qabiliyyətini artırmaq üzrə səylər göstərir.

Türkiyənin ticarət naziri Ömer Bolat daha əvvəl sosial şəbəkədə ölkənin bu ilin mart ayı üzrə ixrac rəqəmlərini paylaşmışdı. O qeyd etmişdi ki, mart ayında Türkiyə mallarının ixrac həcmi 23,4 milyard dollar təşkil edib. "Bu, Türkiyə Cümhuriyyəti tarixində beşinci ən yüksək aylıq ixrac göstəricisi sayılır", - deyə o vurğulamışdı.

Ümumilikdə, 2024-cü ildə Türkiyənin ən çox məhsul ixrac etdiyi ölkələr sırasında Azərbaycan beşinci yerdədir. Ötən il Azərbaycan Türkiyədən 3,1 milyard dollar dəyərində məhsul idxal edib.

Qeyd olunan dövrdə Türkiyə qonşuları Azərbaycan, Bolqarıstan, Gürcüstan, İran, İraq, Suriya və Yunanıstana ümumilikdə 34,2 milyard dollarlıq məhsul ixrac edib. Sözügedən məbləğ 2023-cü ildə təxminən 31,9 milyard dollar təşkil edib ki, bu da illik müqayisədə 7,4 faiz artım deməkdir.

Türkiyənin ən çox məhsul ixrac etdiyi ölkə 13 milyard dollarla İraq olub. Siyahıda İraqdan sonra 5,2 milyard dollarla Bolqarıstan, 4,8 milyard dollarla Yunanıstan, 3,2 milyard dollarla İran, 3,1 milyard dollarla Azərbaycan qərarlaşıb. İxracda ən böyük illik artım 21,9 faizlə Bolqarıstana, 15,5 faizlə Yunanıstana və 10,1 faizlə Azərbaycana qeydə alınıb.

**İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat" a şərhində bildirdi ki, Türkiyədən geyim idxalının azalmasına səbəb fərdi sifarişlərdir. Ekspert hesab edir ki, dükanlarda geyimlər baha qiymətə satıldığı üçün fərdi sifarişlər artıb:** "Fərdi sifarişlər Dövlət Gömrük Komitəsinin (DGK) rəsmi statistikasına daxil edilmir. DGK-nın statistikası xarici ticarət dövriyyəsini əhatə edir. Türkiyədə bir neçə onlayn platformanın mövcudluğu, azərbaycanlıların da bu platformalardan daha geniş istifadə etməsi rəsmi kanallarla, yeni şirkətlər və fiziki şəxslər tərəfindən həm topdan gətirilən geyim məhsullarının azalmasına səbəb olub. Bəlkə də fərdi sifarişlər də nəzərə alınsa idi, statistikaya daxil edilsə idi, ciddi artım müşahidə oluna bilərdi. Bir sözlə, bu tendensiyanın yaranmasının əsas səbəbi pərakəndə satış mağazalarının onlayn sifarişlərlə rəqabət apara bilməməsidir. Onlarda qiymət daha yüksəkdir, vətəndaşlar da onlayn sifarişlərə üstünlük verirlər".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Mirzoyanın idarəsindən sərsəm iddia - Bakı cavabını verdi

## Rəsmi İrəvan hələ də "etnik təmizləmə"dən dəm vurur; **deputat:** "Ermənistan bu mövzunu birdəfəlik kənara qoymalıdır"

**"Dağlıq Qarabağ ermənilərinin "məcburi köçürülməsi" və Dağlıq Qarabağın ləğvi haqqında fərman dərc edildikdən sonra bu məsələ Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin tənzimlənməsi gündəliyindən çıxarılıb", - Ermənistan XİN "AzadlıqRadiosu"nun erməni xidmətinin sualına cavab olaraq bildirib.**

Rəsmi İrəvanın açıqlamasında yenə də öz xoşu ilə gedən ermənilərin "məcburi köçürüldüyü" vurğulanır. Halbuki onların gedişini əks etdirən videosübutlar var. Həmin kadrlardan aydın olur ki, mülki ermənilər məcburi yox, könüllü şəkildə Qarabağdan çıxırlar. Onlardan kimisi şokolad yeyə-yeyə, kimisi gülə-gülə bölgəni tərk edir. Gedərkən də yüklərini aparırlar.

Azərbaycanlılar isə Qarabağdan didərgin salınanda güllələrbaran içərisində canlarını götürüb qaçmışdılar. Amma ermənilər istər müharibədən sonra Kəlbəcər, Laçın, Zabuxdan olsun, istər Qarabağın yuxarı rayonlarından, təhlükəsiz şəraitdə bölgəni tərk ediblər.

O zaman, Ermənistan XİN hansı əsasla ermənilərin gedişini qovulma, etnik təmizləmə kimi qiymətləndirə bilir? Ümumiyyətlə, bu ittihamlar olduqca çeynənib, di gəl, qarşı tərəf bu əsassız fikirləri söyləməkdən yorulmur. Halbuki vaxtilə BMT faktaraşdırıcı missiyası da bölgəyə gəlib və etnik təmizləməyə dair heç bir sübut tapmayıb.

İrəvan "məcburi köçkün", bəzən isə "etnik təmizləmə" ifadələrini gündəmdə saxlamaqla nəyə nail olmaq istəyir?

**Milli Məclisin deputatı Ceyhun Məmmədov "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın ritorikasında dəyişikliyin hələ də müşahidə olunmaması təəssüf yaradır:** "Eyni siyasət davam etdirilir. Bir tərəfdən Ermənistan iddia edir ki, sülh prosesinə hazırdır, sülh sazişini imzalamağa hazırdır, digər tərəfdən isə sülhə zidd addımlarını davam etdirir. Bu addımlardan biri Qarabağdan könüllü köçmüş ermənilər "məcburi köçürülmüş ermənilər" adlandırmaqda davam etməsidir. İrəvan bu məsələni qəsdən süni şəkildə gündəmdə saxlamağa çalışır. Məqsədlərdən biri Azərbaycana beynəlxalq təzyiq edilməsinə nail olmaq, biri beynəlxalq təşkilatlardan, müxtəlif dövlətlərdən və erməni diasporundan "məcburi köçkünlərə" yardım adı ilə böyük yardımlar qoparmaqdır. Azərbaycan heç bir silahsız erməni Qarabağdan çıxarmayıb. Azərbaycan öz ərazisi olan Qarabağda antiterror əməliyyatı keçirib silahlı terrorçuları,



Ermənistan silahlı birləşmələrinin qalıqlarını tərk-silah edib ərazimizdən çıxarıb. Mülki ermənilər isə özləri könüllü köçüblər. Bunu köçərkən özləri də açıq bəyan edirdilər. Bunu təsdiqləyən çoxlu sayda sübutlar var. Azərbaycan ən yüksək səviyyədə dəfələrlə Azərbaycan vətəndaşlığını qəbul edən mülki ermənilərə çağırış etmişdi ki, çıxıb getməsinlər. Lakin ermənilər bu müraciətləri qəbul etmədilər, köçdülər. Məsələnin başqa bir tərəfi isə odur ki, Qarabağdan köçən ermənilərin əksəriyyəti Ermənistanın və digər başqa-başqa ölkələrin vətəndaşlarıdır. Bunu köç zamanı ermənilər özləri etiraf edirdilər. Yəni onlar Azərbaycan ərazisində qanunsuz olaraq yaşayırdılar. Köçüb öz ölkələrinə getdilər. İndi Ermənistanın bu erməniləri Qarabağdan məcburi köçkün düşmüş ermənilər adlandırması gülüncdür".

**Deputat vurğuladı ki, Ermənistan bu mövzunu birdəfəlik kənara qoymalıdır:** "Ermənistan anlamalıdır ki, bu cür siyasətlə sülhə nail olmaq mümkün deyil. Azərbaycanı erməniləri məcburi köçürməkdə ittiham edib Azərbaycanla sülhə hazır olduğunu bəyan etmək riyakarlıqdır, dünyanı aldatmaqdır. İrəvan bu siyasətə son qoymalıdır. Əks təqdirdə, Azərbaycanla münasibətlərin daha da kəskinləşməsinə məhz Ermənistan səbəb olmuş olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Mən, Araik, Vardanyan inteqrasiyanın əleyhinə idik"

## **Babayan:** "Xarici səfərlərə Ermənistan vətəndaşı kimi gedirdim"

**Təqsirləndirilən şəxs - David Babayan aprelin 7-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində dövlət ittihamçısının sualını cavablandırarkən bildirib ki, Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində yaradılmış qondarma qurumun "xarici işlər naziri" olarkən xarici səfərlərə Ermənistan Respublikasının vətəndaşı kimi gedib.**

Musavat.com xəbər verir ki, o, xarici səfərlərə Ermənistan pasportu ilə getdiyini qeyd edərək deyib: "Müəyyən şəxslərdə (qondarma rejimin "vəzifəli" şəxsləri nəzərdə tutulur - red.) diplomatik pasport da var idi. Sadə pasportlarımız kimi, diplomatik pasportlar da Ermənistanın idi".

Babayan dövlət ittihamçısının sualını cavablandırarkən etiraf edib ki, vaxtilə işğal altında olan ərazilərdə yaşayan erməni sakinlərin Azərbaycana inteqrasiyasına qarşı olub. O, "inteqrasiya mümkünsüz idi" deyib.

Babayan digər təqsirləndirilən şəxslər - Araik Arutyunyanın, Ruben Vardanyanın, habelə qondarma rejimin başqa "vəzifəli" şəxslərinin də inteqrasiya əleyhinə olduğunu etiraf



edib. "Heç bir "vəzifəli" şəxs belə bir inteqrasiyanın perspektivini görmürdü", - deyə o bildirib.

Xatırladaq ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

Cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var. Qeyd edək ki, Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robert təqsirləndirilən şəxs qismində cəlb olunublar.

Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumata görə, 2 may 2024-cü ildə Azərbaycan Baş prokurorunun qərarı ilə, 1987-ci ilin oktyabrından 2024-cü il, 22 aprel tarixinədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında araşdırılmış 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Baş Prokurorluğunun rəhbərliyi altında, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunublar. Onların hər birinin müdafiə, dil seçimi və digər prosessual hüquqları təmin edilib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# Mina terroru dayanmır: iki gündə 1 şəhid, 4 yaralı - nə etməli?

## Hərbi ekspert: "Peşəkar mütəxəssis belə minanın qurbanı ola bilər"

**Aprelin 6-da Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı Cəbrayıl rayonunda minaya düşüb. 1991-ci il təvəllüdlü Xankişiyev Heydər Əli oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı olub. Onun sağ ayağı topuq nahiyəsindən amputasiya olunub.**



Eyni gündə Ağdamın Qalayçılar kəndi ərazisində baş vermiş mina hadisəsi nəticəsində 3 nəfər yaralanıb. Onlardan biri 1983-cü il təvəllüdlü Səbuhi Elman oğlu Məmmədova sağ aşıq baldır oynağının travmatik amputasiyası diaqnozu ilə əməliyyat təyin edilib.

Aprelin 7-də səhər saatlarında isə daha bir acı xəbər yayıldı. Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçusu əsgər Nicat oğlu Musayev Cəbrayıl rayonunda minaya düşərək həlak olub. Minaya düşən hərbçimizə şəhid statusunun verilməsi gözlənilir.

Öz xidməti vəzifəsini yerinə yetirərkən minaya düşən hərbçinin, eyni zamanda mülki vətəndaşın minaya düşməsi haradasa anlaşılandır, bəs müvafiq hazırlığa malik ANAMA əməkdaşının eyni faciə ilə üzləşməsi nə ilə bağlıdır? Ümumiyyətlə, statistika nə deyir, Qarabağda minaya düşmə halları getdikcə azalır, yoxsa... Nəhayət, ermeni tərəfindən mina xəritələrini niyə ala bilmirik, ümumiyyətlə, onlar varmı?



**Azərbaycan Müdafiə Nazirliyinin hərbi polisinin keçmiş rəisi, polkovnik Rövşən Məhərrəmov peşəkar mütəxəssislərin belə mina terrorunun qurbanı ola biləcəyini vurğuladı:** "Təəssüf edirəm ki, son günlərdə minaya düşmə halları yenidən artıb. Son olaraq, şəhid də verdik. ANAMA əməkdaşının hadisəsindən başlayaq. O, peşəkar hazırlıq keçmiş mütəxəssisdir, yəni istehkamçıdır, bu sahənin peşəkarıdır. Amma unutmayaq ki, ən peşəkar mütəxəssis belə minaya düşə bilər. Çünki ermənilər vaxtilə çoxlu sayda sürpriz minalar yerləşdiriblər. Bir minanın altında başqa bir mina ola bilər, məsələn, bir qədər dərinlikdə. ANAMA əməkdaşı cihazla mina aşkarlayanda, ikinci minanı aşkar etməyə və nəticədə mina partlaya bilər, mina təmizləyən şəxs və ya digər bir şəxs xəsarət ala bilər.

Mina məsələsi elədir ki, bu, çox təhlükəli bir silahdır. Ərazilərimiz minalarla çirklənib. Birinci Qarabağ döyüşlərində bizim ordu geri çəkilən zaman həmin əraziləri minalamışdıq. Bilirsinizmi, o vaxt nə mina yerləşdirmə formulu tərtib olunmuşdu, nə də xəritələr çəkilmişdi. 44 günlük savaşda biz torpaqlarımızı azad edərkən düşmənlər də formulu tərtib etmədən minalar basdırırdılar. Ermənilər tərəfindən təqdim olunan xəritələr doğru deyil. Ola bilsin ki, onlarda bu xəritələr var. Sadəcə, bilərəkdən verməyiblər.

Mülki insanlara gəlincə, mən bu yaxınlarda Qarabağda idim. Bütün təhlükəsizlik qaydaları qorunur. Aidiyyəti qurumlar - ANAMA-dır, Müdafiə Nazirliyinin mühəndis xidməti və digər qurumlardır. Yazıblar ki, giriş qadağandır, təhlükəlidir. İnsanlar bunu başa düşməli və bu təhlükəsizlik qaydalarına riayət etməlidirlər. Ora daxil olmaq qəti qadağandır. Çünki nə qədər təmizləsələr də, yenə də ehtimal var ki, torpağın altında mina qalsın. Necə yayına bilər? Məsələn, mərmi partlamaya bilər, yerə toxunduqda torpağa dərin girər və partlamaz. Belə halları biz 44 günlük müharibədə gördük. Partlamamış vəziyyətdə olan mərmini çay suyu və ya yağış suyu örtür, üstü görünməz hala gəlir və həmin mərmi partlamamış qalır. Dərinlikdə olduğuna görə onu müəyyən etmək bir qədər çətin olur. ANAMA və bizim peşəkar mütəxəssislər bu iş üzərində diqqətlə çalışırlar. Yeni sözümün canı odur ki, ANAMA əməkdaşlarının minaya düşməsi təsadüfi hal ola bilər. Amma təhlükəsizlik qaydalarına hətta peşəkarlar da əməl etməlidirlər. Yəqin ki, hansısa sürpriz tələ qurulub və həmin sürpriz nəticəsində partlayış baş verib".

**Hərbi ekspert onu da xüsusi vurğuladı ki, mülki şəxslərlə bağlı müvafiq icra hakimiyyəti orqanları tərəfindən dərslər həyata keçirilməlidir:** "Ərazidə yaşayanlarla, ora gedən turistlərlə təlimlər keçilməlidir. Əhali ilə maarifləndirmə işi aparılmalı və diqqətə çatdırılmalıdır ki, ərazi işarələrlə göstərilir, işarələr qoyulub. Bunu Qarabağda gördüm. Amma buna baxmayaraq, bəziləri öz qohumlarını ziyarət etməyə gedirlər. Belə hallara yol verməmək üçün insanlarımızı maarifləndirmə işini müvafiq qurumlar daha da gücləndirməlidir.

Nəzərinizə çatdırım ki, 2-ci Dünya müharibəsindən sonra bu günə qədər də Ukraynada, Rusiyanın ərazilərində minalar aşkarlanır, minalar partlayır və minalara düşənlər, xəsarət alanlar var. Yeni bu uzun bir prosesdir. Bilirsiniz ki, təkcə Ağdam ərazisində 100.000-dən artıq mina basdırılıb. Bu minaları təmizləmək elə də asan bir məsələ deyil. Bu minalar sektorlara bölünərək, sektor-sektor təmizlənərək gedir.

Görün II Dünya müharibəsi nə vaxt olub, amma bu gün də köhnə minalarla rastlaşmalar var. Partizanların qaldığı ərazilərdə çoxlu sayda minalar aşkarlanır. Bu gün də ermənilərdən tələb etməliyik ki, düzgün məlumatlar versinlər, düzgün formulalar təqdim etsinlər. Burada o peşəkar ANAMA işçisini günahlandırmaq olmaz. Yeni o, öz vəzifəsini yerinə yetirən zaman belə hallar baş verib. Gələcəkdə də belə hadisələr ola bilər. Amma mülki şəxslərin minaya düşməsi onların məsuliyyətsizliyi ucbatından baş verir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Ərindən boşanmaq istədi, qulağından oldu - boşanma mədəniyyətimizlə bağlı suallar

## Psixoloq: "Hər insan əslində potensial cinayətkara çevrilə bilər, o halda ki... "

**Bakının Sabunçu rayonunda ər arvadının üzünə bıçaqla xəsarət yetirib, qulağını kəsib. Hadisə Bilgəh qəsəbəsində baş verib. 1995-ci il təvəllüdlü Zəhra Ramiz qızı Bayramova yaşadığı evdə həyat yoldaşı ilə mübahisə edib.**

Mübahisəyə səbəb isə qadının boşanmaq istəyi olub. Bundan hiddətlənən əri Z.Bayramovanın əvvəlcə qulağını kəsib, daha sonra onun üzünə bıçaqla xəsarətlər yetirib. Ər (artıq saxlanılıb) qadının kəsilmiş qulağını onun cibinə qoyub.

Məsələ ilə bağlı TƏBİB-dən bildirilib ki, 1995-ci il təvəllüdlü şəxs (qadın cinsli) Sabunçu Tibb Mərkəzinin Təcili tibbi yardım şöbəsinə hospitalizasiya olunub: "Qulağın kəsilmiş-deşilmiş yarası diaqnozu ilə pasiyentə zəruri tibbi yardımlar göstərilib. Vəziyyəti stabil qiymətləndirilən şəxs ambulator müalicə üçün evə buraxılıb".

Faktla bağlı araşdırma aparılır.

Əfsus ki, bu, ilk belə hal deyil. Bəs Azərbaycan ailələrində xüsusən də qadın tərəfindən boşanma cəhdləri niyə bir çox hallarda faciə ilə bitir, qadına qarşı zorakılıq, vəhşilik törədilir? Azərbaycanlı kişi (ər) niyə aqressiv olur? Bu, daha çox mentalitetlə bağlıdır, yoxsa? Yaxud ailədə uşağın olub-olmaması nə dərəcədə qəddarlığa rəvac verən amildir?

**Mövzu ilə bağlı tanınmış psixoloq Vəfa Rəşidova "Yeni Müsavat"a danışıb:** "Bu məsələ çox dərin və həssasdır. Əvvəla, bu aqressiyanın kökündə çox zaman maddi çətışmazlıqlar dayanır. İnsan istədiyi həyatı yaşaya bilmir, ən sadə ehtiyaclarını belə ödəyə bilmir. Təhsilsizdir, zamanında özünü inkişaf etdirmək imkanı olmayıb. Gəldiyi mühit sağlam deyil, bəlkə də özü zorakılıqla dolu bir ailədə böyüyüb. Bəli, hər bir insanda müəyyən dərəcədə aqressiya ola bilər. Bu, bəzən situativ olaraq üzə çıxır və sonra da sakitləşir. Amma mütəmadi şəkildə davam edən aqressiya artıq nevrotik pozuntuların əlamətidir. Bu hal psixopatiya və ya ağır nevrozlarla müşahidə oluna bilər. Burada artıq söhbət təkcə aqressiv davranışdan deyil, konkret psixoloji diaqnoz və müalicə tələb edən problemlərdən gedir".

**Psixoloq qeyd edir ki, bununla yanaşı, məsələnin mentalitetlə bağlı tərəfi də böyük rol oynayır:** "Təəssüf ki, bizim cəmiyyətdə gülmək, fərqli olmaq, seçilmək və ya həyat tərzində dəyişiklik etmək dərhal qınaq və alçaldılma ilə qarşılanır. "Arvadından boşandısa, demək, kişi deyil", "xaraktersizdir" kimi cümlələr hələ də yaşayır və təsir gücünü itirməyib. İnsanlar gündəlik bu cür stereotiplərlə üz-üzə qalır. Beləliklə, kişi həyat yoldaşı boşanmaq istədikdə, onun hisslərini yox, ətrafdakıların nə deyəcəyini düşünür. Düşünür ki, cəmiyyət onun haqqında "bacarmadı, ailəsini qoruya bilmədi, kişi deyil" deyəcək. Bu qorxu onu o yerə gətirib çıxarır ki, "ya o qadın ölməlidir, ya da bu evlilik ölməməlidir" kimi dəhşətli düşüncələr yaranır. Onun üçün boşanmaq yox, ölüm daha məqbul görünür.

Əslində isə insan ailə qurmağı bacardığı kimi, boşanmağı da bacarmalıdır. Bəzi hallarda boşanmaq bir nicat, bir xilas forması, hətta Allahın bir lütfüdür. Cinayətlərin, fəlakətlərin qarşısını almaq üçün boşanma vacib şərtə çevrilə bilər. Amma bizim cəmiyyət hələ də bu düşüncəni qəbul etməyə hazır deyil. Boşanmış insanlar qınanır, damğalanır, cəmiyyətdən kənara itələnir. Onlara az qala "ikinci dərəcəli insan" kimi baxılır. İnsan təkcə evindən deyil, bəzən öz insanlığından da məhrum edilir.

Əlbəttə ki, həyat yoldaşını bıçaqlayan insana bəraət qazandırmaq olmaz, bu mümkün deyil. Amma bu cinayətin arxasında bəzən sadəcə bir şəxsi deyil, bütöv bir cəmiyyətin təzyiqini, köhnəlmiş düşüncə tərzlərini və psixoloji baxımdan yorğun insanları görmək olur. Beyinlərə daş kimi oturmuş, dəyişmək istəməyən düşüncələr bəzən insanları ən qorxulu addımlara sövq edir.

Unutmayaq: mühit, qohumlar, qonşular, sosial şərhlər - bunların hər biri insanın psixikasına təsir edir. Bəzən insan o qədər sıxışdırılır, o qədər təcrid olunur ki, bir çıxış yolu kimi cinayətə əl atır. Hər bir insan əslində potensial olaraq cinayətkara çevrilə bilər. Əgər biz birini damğalayır, ona "sən artıq bitmisən" deyiriksə, onu cəmiyyətin kənarına atırıqsa, o insan da bir anda özünü itirə, törətdiyi cinayəti "çoxdan məhkum olunmuş" biri kimi görə bilər.

Cinayətin arxasında təkcə bıçaq vuran bir əl yox, çox zaman görünməyən yüzlərlə səs, qınaq, lağ, damğa dayanır..."

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Qarabağ

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Sərhəd təxribatlarının arxasındakı üç hiylə...

## İrəvan sülh əleyhinə addımları ilə kənar güclərin hansı planlarını qurur? - ilginc rəy

**Prezident İlham Əliyev almaniyalı həmkarı Ştaynmayerlə Bakıda mətbuat konfransında sülhün əsas iki şərtini bəyan etdi: Minsk Qrupu ləğv edilməlidir və konstitusiya dəyişməlidir. Lakin Ermənistan sülh əleyhinə əməllərini davam etdirir. Söhbət son günlər atəşkəsin pozulmasından gedir.**



Artıq müdafiə naziri general-polkovnik Zakir Həsənov orduya tapşırıq verib. Nazir Azərbaycan Ordusu bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb. Çünki sərhəddə erməni təxribatları səngimir. Rəsmi İrəvan sülh sazişini hər an imzalamağa hazır olduğunu bəyan edir, amma erməni ordusu mövqelərimizi atəşə tutur. Deməli, Ermənistan sülhün düşmənidir. Buna başqa ad verməkmümkün deyil. Rəsmi Bakını əlavə şərtlər irəli sürməkdə ittiham edən Ermənistanın dönüb özünün sərhəd təxribatlarına diqqət yetirməsi yaxşı olardı. Bu addımlar sülh əleyhinə yönəlib. Çünki Paşinyan hakimiyyəti indi sülh müqaviləsini imzalamağa hazır deyil. Bunun üçün Prezidentin açıqladığı hər iki tələbi yerinə yetirməlidir. Ermənistan isə bu il referenduma getməyi planlaşdırmır, Minsk Qrupunun ləğvini isə sazişdən sonraya saxlamağı təklif edir. Bir sözlə, həm atəşkəsi poz, həm Azərbaycanı ittiham elə, həm də hər iki şərtin yerinə yetirilməsini qeyri-müəyyən dövrə saxla, bunun bir adı var - Ermənistan sülh istəmir. O zaman seçim qarşı tərəfindir. Əgər sülh olmayacaqsa, sabitlik də olmayacaq. Regionda qeyri-stabillik isə inkişafı tormozlayır. Axı Ermənistan Türkiyə ilə quru sərhədinin açılmasını səbirsizliklə gözləyir. Onun Avropaya çıxışı və iqtisadi dirçəlişi bu sərhəddən keçir. Sülh olmayacaqsa, Ermənistanın hazırkı blokadası davam edəcək. Əslində sülh müqaviləsi imzalamayan ölkələr də olub. Azərbaycan da Ermənistana sülh sazişini imzalamaq üçün yalvarmır. Qoy, İrəvan özü fikirləşsin - yekun sülh sənədi ən çox kimə lazımdır.

Azərbaycan suverenliyini bərpa edib, Qarabağ azaddır, sülh sazişi olmadan da öz inkişafını təmin edir. Ancaq Ermənistan ən çox sülhə ehtiyacı olan tərəfdir. Eyni zamanda üçtərəfli bəyanatda razılaşdırılan 9-cu bənd icra edilməli, yeni nəqliyyat kommunikasiyaları açılmalıdır ki, Ermənistan inkişafını təmin edə bilsin. Ancaq göründüyü kimi, sərhəddə atəş açırlar və sülh əleyhinə addımları sürətləndirirlər.

**Hərbi ekspert Ramil Məmmədlinin sözlərinə görə, müdafiə nazirinin tapşırığı Ermənistanın növbəti təxribatlarının olacağı ilə bağlı gözləntidən xəbər verir. Onun fikrincə, düşmən sərhəddə atəşkəsi pozmaqla regionda gərginliyi artırır və günahı Azərbaycanın üzərinə atır ki, bizi sülh istəməməkdə ittiham etsin:** "Bu, erməni hiyləsidir. Paşinyana yaxın media resursları yazırlar ki, guya Azərbaycan atəşkəsi pozur. Məqsəd odur ki, beynəlxalq ictimaiyyət bizi sülh əleyhidarı kimi tanısın. Ona görə də müdafiə naziri dərhal göstəriş verdi".

**Hərbi ekspert genişmiqyaslı hərbi əməliyyatlar gözləmir:** "Sadəcə, bu təxribatlar siyasi mahiyyət kəsb edir. Atəş açırlar ki, bizi günahlandırsınlar. Halbuki avropalı müşahidəçilər hesabatla çıxış etməlidirlər. Amma "mülki missiya adlanan" "casus şəbəkəsi"nin obyektiv hesabat təqdim edəcəyini gözləmirəm".

**R.Məmmədli hesab edir ki, sülh müqaviləsinin imzalanması bəzi dairələrin də marağında deyil. Onun fikrincə, həmin mərkəzlər daha çox vasitəçilik yarışına giriblər:** "Ermənistan bu oyunların içərisindədir. Lakin Paşinyan ağlını başına yığmalıdır ki, sonra altını çəkməsin. Kənar qüvvələrin məkrli oyunları Ermənistana xeyir gətirməyəcək. Biz bilirik ki, bu planlar regionu qarışdırmaq və bölgədə təsir gücünü artırmaq niyyəti güdür. Ermənistan alət kimi istifadə edildiyi üçün bölgədə sabitlik belə pozulur. Azərbaycan isə təklif edir ki, kənar təsirlərə uymaq lazım deyil, o iki şərti yerinə yetir, sazişə qol çək, bölgədə dayanıqlı sülh, sabitlik olsun. Xüsusən də Zəngəzur dəhlizinin açılması təhlükəsizliyi təmin edəcək. Əfsuslar olsun ki, sərhəd təxribatlarında həm də dəhlizlə bağlı məkrli oyunlar var".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU**

# "Paşinyan beş bu cür sənədə imza atsa belə..."

## Tofiq Zülfüqarov: "İrəvanın sülhlə bağlı tələskənliyi görüntü yaratmaq cəhdidir"



**"Sülh dedikdə, bəzi insanlar müxtəlif anlayışları başa düşür. Hansı hadisələr baş verməlidir ki, sülh bərqərar olsun? Bunun üçün bir neçə vacib amillər var. Sərhədlərin müəyyənləşməsi, kommunikasiyaların açılması, işğalı təmin edən qərarların hamısı ləğv olunmalıdır. Bu, təkcə Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası ilə bağlı deyil. Hələ də davam edən işğalçılıq ideologiyası dəyişməlidir. Təzminat və siyasi məsuliyyət, ictimaiyyətin geniş diskussiyası təşkil edilməlidir. Bu vaxt sülhün təminatından danışmaq olar". "Yeni Müsavat" bildirir ki, bu fikirləri Azərbaycanın sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Teleqraf"ın suallarını cavablandırarkən deyib.**

Onun sözlərinə görə, amma bir çoxları iddia edir ki, bu və ya digər sənədə imza atan kimi sülh mümkün olacaq. "Azərbaycan Prezidenti də bu mövzulara aid bütün məsələlərə aydınlıq gətirdi. Problemin həlli üçün ona aid müxtəlif hissələr var. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanat, 2021-ci ildə əldə edilən sənədlər, daha sonra isə sərhədlərin delimitasiyası ilə bağlı olan qərarlar yekun sülh sazişinin imzalanması üçün əsas mərhələdir".

**T.Zülfüqarov deyib ki, ermənilər həmişə olduğu kimi, bu və ya digər sənədi təhrif etməyə çalışırlar:** "Onların sülhlə bağlı tələskənliyi beynəlxalq ictimaiyyətin gözü önündə görüntü yaratmaq cəhdidir. İddia edirlər ki, erməni tərəfi Azərbaycandan fərqli olaraq sülhə hazırdır. Əslində isə reallıq tamam fərqlidir. Sərhədlərin müəyyən edilməsi, təzminat kimi vacib məsələlər həll olunmalı, kommunikasiyaların açılması təmin edilməlidir. Fakt odur ki, erməni tərəfi digər öhdəliklərdən boyun qaçırmağa çalışır. Azərbaycan əraziləri 30 il Ermənistan tərəfindən işğalda saxlanılıb, 10 minlərlə azərbaycanlı bu münaqişənin qurbanı olub. Misal üçün Almaniya İkinci Dünya müharibəsinin başa çatmasından sonra müharibə cinayətlərinə görə hələ də təzminat ödəyir, siyasi məsuliyyətini qəbul edib, buna səbəb olan nasist ideologiyası rəsmən qadağan olunub".

**Politoloq əlavə edib ki, sülh üçün əsas olan təminatlar qəbul edilməlidir:** "Bu gün Nikol Paşinyan 5 bu cür sənədə imza atsa belə bu məsələni həll etmir. Əsas erməni cəmiyyəti, onun "ideologiyası", mentalitetidir ki, bu dəyişməlidir. Azərbaycan hazırda məhz bununla məşğuldur. Ona görə də 5-6 səhifəlik sənədə imza atmaqla belə bütün məsələlər öz həllini tapmayacaq".

# "Dairə sıxılır, Ermənistan çökəcək" - Köçəryan

**"Rusiya-Ukrayna münaqişəsi Ermənistanın iqtisadi artımına və büdcə gəlirlərinə böyük təsir göstərdi. Xarici ticarətə və maliyyə axınlarına xidmət nəticəsində büdcə milyardlarla dram gəlir əldə edib. Bununla belə, bütün bunlarla vidalaşmağın vaxtı çatıb. Dairə sıxılır".**

"Yeni Müsavat" Axar.az-a istinadla xəbər verir ki, bu sözləri erməni iqtisadçı Akop Köçəryan qeyd edib. Onun sözlərinə görə, bir vaxtlar Rusiya-Ukrayna münaqişəsi və Rusiyaya qarşı tətbiq edilən sanksiyalar iqtisadiyyatımıza çox böyük müsbət təsir göstərdiyi kimi, Rusiya-Amerika münasibətlərində gərginliyin azaldılması və Rusiya-Ukrayna münaqişəsinə son qoymaq üçün başlayan proseslər Ermənistan iqtisadiyyatı üçün problemlər yaradıb: "Artıq bunlar ötən ilin ikinci yarısında, müəyyən istiqamətlərdə xarici təsirlərin zəiflədiyi vaxtda özünü göstərməyə başlayıb. Nəticədə iqtisadi artım tempi kəskin şəkildə azalıb. Dövlət büdcəsinə də böyük ziyan dəyib. Planlaşdırılmış məbləğlə müqayisədə ötən il vergi daxilolmaları 223 milyard drama yaxın az yerinə yetirilib. Son illər intensivləşən geosiyasi gərginliyin gözlənilən mümkün yumşaldılmasından sonra xarici amillərin Ermənistan iqtisadiyyatına və dövlət büdcəsinin gəlirlərinə mənfi təsiri daha çox olacaq".

**Erməni ekspert deyib ki, bu, ilk növbədə, həm maliyyə, həm də ticarət axınının azalması ilə ifadə olunacaq:** "Bu hal son aylarda, xüsusən də ən azı yarıya qədər azalan xarici ticarət göstəricilərində açıq şəkildə özünü göstərir. Amma bunula da bitməyəcək. Təsirlər tədricən Ermənistanın son illərdə iqtisadi artımını süni şəkildə stimullaşdıran bütün digər sahələrə yayılacaq. Əgər Rusiya-Amerika münasibətlərinin bərpası ilə paralel olaraq iqtisadi sanksiyaların Rusiya bazarına təsiri tədricən yumşalsa, Ermənistan vasitəsilə təkrar ixrac öz əhəmiyyətini bütövlükdə itirəcək. Xarici ticarətə xidmətə yönəlmiş maliyyə axınları da azalacaq. Bu, həmin sektorun diktə etdiyi təsirlərin zəifləməsinə, həm iqtisadi artıma, həm bütövlükdə büdcə gəlirlərinə, həm də maliyyə sisteminə və valyuta bazarlarına təzyiqin artmasına gətirib çıxaracaq".

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025



# Kiberdələduzluqla mübarizədə mühüm yenilik - DİN-dən xəbərdarlıq

## Azərbaycanda da bu istiqamətdə qanun qəbul olunsun...

**“Bank hesabınıza müdaxilə zəngləri dələduzluqdur. Bank kartı istifadəçilərinə şübhəli zənglər edən, mesajlar yazan şəxslər bankların adından hərəkət edirlər. Xarici nömrə ilə əvvəlcədən hazırlanan ssenarilərə əsasən cinayətkarlar vaxtın olmaması üçün tələsik kritik suallar verib təşviş, həyəcan yaradırlar: "Hesabda itki riski yaranıb, kartınıza müdaxilə var".**

Bu barədə Daxili İşlər Nazirliyinin əhaliyə müraciətində bildirilib. Qeyd edilib ki, əsasən özünü bank əməkdaşı kimi təqdim etmə hallarında kart sahibi heç bir halda şəxsi məlumatları naməlum şəxsə verməməlidir: “Bank kartı sahibi bilməlidir ki, bank kartının üzərində olan 16 rəqəmi, CVV nömrəsini, bankınızın sizə göndərdiyi OTP və ya 3D təhlükəsizlik kodu istənirsə, dələduzluqdur. Onlar cinayətkar niyyətlərini xaricdən həyata keçirməklə oğurlanan pulu saxta ofşor hesablara köçürüb izi itirəcəklər. Bir daha diqqətə çatdırırıq ki, bu və ya digər hallarla bağlı vətəndaşlar özünü bank əməkdaşı kimi təqdim edərək zəng edən, sosial media üzərindən mesajlar göndərən naməlum şəxslərlə danışıq aparmamalıdır, bank kartı məlumatlarını verməməlidir. Əgər həmin zəngi, mesajı yoxlamaq istəyirsinizsə, ona cavab olaraq deyil, kartdakı nömrədən istifadə edərək banka zəng edin. Unutmayın ki, sizin kart məlumatlarınız kartınızın mənsub olduğu bankda var və bank işçisi heç bir halda bu məlumatları soruşmur”.

Bu arada Rusiya prezidenti Vladimir Putin rusiyalıları telefon və internet dələduzluğundan qorumaq üçün qanun imzalayıb. Sənəd rəsmi hüquqi informasiya portalında dərc olunub.

Qanunda həmçinin beynəlxalq nömrələrdən edilən zənglərin məcburi etiketlənməsi, dövlət qurumlarının, bankların və rabitə operatorlarının əməkdaşlarının messencerlər vasitəsilə vətəndaşlar və müştərilərlə əlaqə saxlamasına qadağa qoyulması nəzərdə tutulur. Bundan əlavə, qorunma üçün şübhəli əməliyyatları təsdiq edə biləcək etibarlı şəxslər institutu tətbiq edilir.

Azərbaycanda bu sahədə qanunvericilik bazası nə yerdədir? Rusiyadakı qanunun oxşarı bizdə də qəbul edilə bilərmi? Mübarizə getdikcə çətinləşir, yoxsa...

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan informasiya texnologiyaları üzrə mütəxəssis Elvin Abbasov deyib ki, kiberdələduzluq beynəlxalq miqyasda artmaqda davam edir:** “Ayrı-ayrı ölkələrdə bunların qarşısını almaq üçün müxtəlif meyarlar tətbiq olunur. Rusiyada yeni bir sərəncam imzalanaraq qaydalar tərtib olundu. Vətəndaşlar artıq xarici nömrələrdən dövlət qurumlarının adı ilə müraciət olunduğunda biləcəklər ki, bu, kiberdələduzdur. Azərbaycanda isə heç bir dövlət qurumu, həmçinin böyük korporasiyalar xarici nömrələrlə əlaqə yaratmır. Sosial şəbəkələrdə bütün qurumların hesabı var, lakin müraciətlər və bildirişlər anlıq mesajlaşmalar üzərindən olunmur. Yəni ölkəmizdə belə bir qanun olmasa da, dövlət qurumları xarici nömrələrlə və ya sosial şəbəkələr vasitəsilə vətəndaşlara anlıq mesajlaşma ilə müraciət etmirlər, yalnız sual olarsa, qəbul edir. Yaxşı olardı ki, Azərbaycanda da bu istiqamətdə qanun qəbul olunsun ki, vətəndaşlar dəqiq bilsinlər ki, xarici nömrələrdən gələn zəng, yaxud da internet vasitəsilə anlıq mesajlaşmalar üzərindən gələn müraciətlər dövlət qurumlarının rəsmi müraciət forması deyil. Bu, çox vacib məsələdir. Vətəndaşlar buna tam əmin olsalar, xarici nömrələrdən gələn mesaj və linklərin dələduzlar tərəfindən göndərildiyini biləcəklər”.

**Ekspertin sözlərinə görə, dünyada kibercinayətkarlığın miqyası artmaqdadır:** “Statistika və proqnozlar göstərir ki, kibercinayətlər astronomik həddə çoxalacaq. Çünki virtual aləmdə gizlənmək və insanları manipulyasiya etmək daha rahatdır.

Bütün cazib mərkəzlər: maliyyə dövriyyələri, biznes işləri internet üzərindən aparılır. Bu isə şərait yaradır ki, cinayətkarlıq kiber müstəviyə keçsin. Gözlənilən odur ki, kibercinayətkarlığın miqyası artacaq.

Burada dələduzluq əsas motiv təşkil edir. Çünki ümumi olaraq fishing və ya başqa dələduzluq növü ilə minlərlə insan bir cəhddə dələduzluğun qurbanı olur. Adətən ölkədaxili nömrələrdən müraciət olunmur. Bütün ssenarilər xarici nömrələr üzərindən qurulur. Buna görə də mən Rusiyada qəbul olunan qanunu dəstəkləyirəm. Vətəndaş xarici nömrədən zəng gələndə, yaxud da dövlət qurumlarının adını daşıyan sosial şəbəkələrdən ona müraciət görəndə başa düşəcək ki, bu bir saxtakarlıq motividir".

**E.Abbasov bildirir ki, ekspertlər bu mövzuda daima çağırışlar və sosial şəbəkələr üzərindən müraciətlər edirlər:** “Xarici tendensiyalar izlənilir və yerli individual hər hansı incident baş verdiyində ona uyğun təkliflər səsləndiririk. Dövlət qurumları ekspertlərin sosial şəbəkələrdəki mesajlarını izləyirlər və onları dövlət proqramlarına cəlb edirlər. Məsələn, mən ən son magistr ixtisaslarının yeni dövrün çağırışlarına görə tənzimlənməsi ilə bağlı dəvət edilmişdim. Bu cür məsələlərdə dövlət daima ekspertlərə müraciət edir, onlarla işləyir. Çünki sahəvi insanların fikirləri önəmlidir”.

DİN-in mətbuat xidmətindən verilən məlumata görə, xarici kiber müdaxilələrlə 2024-cü ildə 16804 fakt üzrə vətəndaşlar aldadılaraq bank kartlarından 22 milyon (22.442.838) manatdan artıq vəsait talanıb. Bildirilib ki, ötən il ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsul vasitələrlə saxta link-keçidlərlə 1027 fakt üzrə 2.043.896 manat, alış-veriş səhifələrində elana görə zəng edib şəxsi məlumatları əldə etməklə 411 fakt üzrə 1.196.786 manat, özünü bank əməkdaşı kimi təqdim edib şəxsi məlumatları əldə etməklə 290 fakt üzrə 598.048 manat, mobil telefona kibermüdaxilə yolu ilə 185 fakt üzrə 311.728 manat, bankamatdan pul çıxarılmasına kömək adı ilə 178 fakt üzrə 92.630 manat, oğurlanıb və itirilmiş kartdan 307 fakt üzrə 101.398 manat pul vəsaiti onlayn talanıb.

İnternet resurslarında vətəndaşları aldatmaqla, lotoreya, qumar oyunları və digərlərində qazanc əldə edəcəyi vədi ilə 471 fakt üzrə 2.450.403 manat, alış-veriş saytlarında müxtəlif əşya satışı ilə bağlı 626 fakt üzrə 292.344 manat, telefon satışına görə 292 fakt üzrə 116.219, avtomobil satışına görə 100 fakt üzrə 121.640 manat, işə düzəldəcəyi vədi ilə 336 fakt üzrə 470.734 manat, kredit vədlərinə görə 501 fakt üzrə 139.600 manat, kirayə ev, avtomobil və digər xidmətlərə görə 343 fakt üzrə 82.370 manat olmaqla, digər üsul vasitələrlə 10000-dən artıq fakt üzrə müxtəlif məbləğlərdə pul vəsaitləri xaricdən idarə olunmaqla başqa-başqa xarici hesablara köçürülüb.

Hər bir fakt üzrə aparılan təhlillər və araşdırmalar göstərir ki, aşkar bilinən kiber talama cinayətləri vətəndaşın bank kartına aid şəxsi məlumatların xaricdə olan naməlum şəxslər tərəfindən ələ keçirilməsi nəticəsində baş verib. Saxta xarici nömrələrdən, profil və səhifələrdən naməlum şəxslərin tələblərinə, təkliflərinə, vədlərinə inanan bank kart sahibləri onunla danışan, yazışan naməlum şəxsin niyyətlərini yoxlamadan, araşdırmadan şəxsi məlumatlarını veriblər, şübhəli linklərə keçid ediblər.

Qeyd olunanları nəzərə alaraq, bir daha vətəndaşlara çağırış edirik, şəxsi məlumatları, bank kartı ilə əlaqəli onlayn ödənişlər üzrə - mədaxil və məxarici həyata keçirərkən diqqətli olsunlar, şübhə yaradan bütün təkliflərə ehtiyatla yanaşsınlar, naməlum zənglərə, mesajlara cavab verməsinlər, şübhəli linklərə keçid etməsinlər.

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

## Hacı Vəliyevin şikayətinə baxıldı - qərar

**Gənc Qazilər Birliyinin sədri Hacı Vəliyev barəsində seçilmiş həbs qərarından apelyasiya şikayəti verilib. Musavat.com xəbər verir ki, Xətai Rayon Məhkəməsinin qərarı ilə Hacı Vəliyev barəsində həbs-qətimkan tədbiri seçilmişdi.**

Qərardan şikayətə Bakı Apelyasiya Məhkəməsində baxılıb. Səhhətində olan problemi diqqətə çatdıran H.Vəliyev barəsində seçilmiş qərarın dəyişdirilməsini istəyib. Məhkəmə şikayəti təmin etməyib.

Vəliyev martın 31-də Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 221.3-cü (Xuliqanlıq, silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda) və 186.1-ci (Özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

❑ **İ.MURADOV, Musavat.com**

## İrandan Azərbaycana narkotik gətirildi, yaxalandılar

**Külli miqdarda narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb. Bu barədə Musavat.com-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib. Bildirilib ki, aprel ayının 6-da dövlət sərhədinin mühafizəsini həyata keçirən sərhəd naryadı tərəfindən 2 (iki) nəfər naməlum şəxsin şübhəli hərəkəti müşahidə edilib.**

Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində dövlət sərhədindən ümumi çəkisi 5 kiloqram 718 qram narkotik vasitə marixuananı ölkə ərazisinə keçirməyə cəhd göstərən Ağdaş rayon sakinləri - 1993-cü il təvəllüdlü Baxşəliyev Baxşalı Kamil oğlu və 1996-cı il təvəllüdlü Kərimov İlqar İlham oğlu saxlanılıb. DSX-dən həmçinin bildirilib ki, mart ayının 25-də sərhəd dəstəsinin xidməti ərazisindən ümumi çəkisi 22 kiloqram 400 qram narkotik vasitə marixuana və 490 ədəd metadon M-40 həbi aşkar olunaraq götürülüb. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# Pomidor pərisi

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud qaldırılmış bəzi məsələlər haqda müəyyən hərflərin yığını

**“Bakı Şəhər İcra Hakimiyyətində şəhərin təsərrüfat və digər xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə paytaxtın müxtəlif sahələrinə aid bir sıra məsələlər qaldırılıb və müzakirə olunub, konkret tapşırıqlar verilib. Bakı şəhərində mövsümi gül və çiçəklərin sayının artırılmasının vacibliyi vurğulanıb”. Sitatın sonu.**

Bəli. Dəfələrlə yazdığımız kimi, artıq düzəlib hər yarağımız... Bircə güllərin sayı artmalıdır. Həmçinin çiçəklərin. Həqiqətən, gül-çiçək Hacıbala müəllimin dövrünə nisbətdə sanki bir qədər azalmışdır. Heç çoxdandır məşhur “Gül bayramı” da şəhər əhalisinin istifadəsinə verilmir. Nə üçün?

Sözgəlişi, xəbərin məzmunundakı yayğın ifadələr də diqqət çəkir. “Müxtəlif sahələr”, “bir sıra məsələlər”, “konkret tapşırıqlar”... Gəl indi söhbəti tut. Sanki paytaxt üzrə sosial-iqtisadi müşavirədən yox, Zəngəzur dəhlizi üzrə hərbi-kəşfiyyat, operativ qərargah toplantısı, necə deyərlər, xəritə üzərində oyunlardan söhbət gedibdir.

Ancaq mənim paytaxtda gül-çiçək mövzusuna yüngül əlavəm vardır. Təklif edirəm Bakıda adi gül-çiçək yox, məsələn, kartof-pomidorun sayı artırılsın. Yoxsa girirsən bazara, kartof olub 2 manat 20 qəpik. İki kilo kartofun pulu ətirşahdan baha çıxır. Yaxud pomidor 7-8 manata qalxmışdı, indi də çox düşməyibdir, deməli, 1 ədəd orxideya gülünün puluna yalnız 2 kilo bamadur almaq mümkündür. O zaman biz nə üçün Bakı sakinlərini meyvə-tərəvəz bitkiləri ilə təmin etməyək? Onsuz qədimdə kartofu Firəngistanda elə ilk vaxtlar gül bitkisi kimi istifadə ediblər, sonra ac qalanda kökünü yeməyə başlayıblar.

Şəxsən mən Holland qızılgülü yerinə Türkiyə kartofuna baxmağa, Çin yasəməni əvəzinə Zirə pomidoru iyləməyə can-başla hazıram.

Hətta 8 martda, 14 fevralda sevgiliyə kartof, soğan, pomidor-xiyar buketləri hədiyyə etmək ənənəsi yaradılmalıdır. Bu, kənd təsərrüfatımızı inanılmaz inkişaf etdirər.

Yeri gəlmişkən, bizim parkda işçilər bir ara özləri üçün pomidor, bibər, kartof əkib-becərirdilər, çox yaxşı da təşəbbüs idi. İndi bilmirəm vəziyyət necədir, çünki parkın həmin hissəsini hündür, yaşıl kollarla hasarlayıblar. Yəqin yaman gözlərdən qoruyurlar.

Meyvəsiz küknarların yerinə qoz-fındıq əkmək də məqsədə müvafiqdir. Ümidvaram konkret tapşırıqlar veriləcək.

Ümumiyyətlə, paytaxtımızda aparılan işlər yaxşıdır, dəstəkləyirik. Məsələn, bu yaxında “Yolsuzluq avtomobillərinin yürüşü” keçirildi. Camaat özünün bu tip maşınlarına mindi, Şamaxı-Xızıdan dolanıb qayıtdılar. Azərbaycanda yol yoxdurmu? Var. Bəs bu maşınların yürüşü “COP-29" tədbirlərimizə, atmosferin qorunmasına hansı fayda verə bilər? Axı normal diyarlarda daha az yanacaq yandıran, kiçik qabaritli avtomobillər reklam və təbliğ edilir, bizdə isə şəhərdə "off-road" propaqandası gedir. Yəqin ki, Dubayın təsiridir, ərəblərdə belə maşınları qumda sürmək, tozanaq qopartmaq kimi əyləncə var. (Turistə nəsə göstərməlisən, qədimlik və təbiət sarıdan problemləri var. Tək göydələnlərlə iş aşmır). Lakin Bakıda səhra yoxdur! Deməli, bunu da düzəltmək lazım gələcəkdir.

Eyni zamanda Türkiyədə “yolsuzluq” sözü bizdəki “korrupsiya” əvəzinə işlədilir. Deməli, Bakıda yolsuzluq avtomobili yürüşü keçirənlər incə şəkildə özünütənqid yolunu tutmuşlar. Afərin. Sükanı belə saxlayın. Hərçənd, bir məsələ var ki, qabaqlar bizdə bəzi QHT-lər hesabat hazırlayırdı, nəticədə dünya korrupsiya reytinqində yüksək yerlər tuturduq. İndi həmin QHT-lərin çoxunu bağlamışıq, üzvlərini içəri basmışıq. Nəticədə ola bilər reytinqdə Danimarkanın yerinə keçək. Bu isə bizə yaraşmaz, çünki orada milli əxlaqımıza zidd proseslər gedir. Məsələn, Kopenhagendə körfəzdə çılpaq bir övrət heykəli qoyulubdur, guya su pərisidir. Düzdür, bir ara müsəlman qardaşlarımız pərini hicab və geyimlə təchiz etmişdilər, lakin qısa müddətə - polis gedib açdı.

İndi söz əlaqədar təşkilatlarındır. Yalın görüm Bakı buxtasında əlində kartof tutmuş pəri heykəlini haçan qoyuruq.

# Bakı-Moskva əlaqələrində yeni mərhələ: Kreml gördü ki...



## Deputat: “Putinin Lukaşenko və Rəhmonla birlikdə Bakıya zəngi, prezidenti parada dəvət etməsi gərginliyi aradan qaldırmağa xidmət edir”

**Rusiya-Azərbaycan münasibətləri AZAL-a məxsus təyyarənin vurulmasından sonra əvvəlki səviyyədə deyil. Bu da Bakının tələblərinin tam olaraq yerinə yetirilməməsi ilə bağlıdır. Baxmayaraq ki, son həftələrdə Rusiya rəsmiləri Azərbaycanın ünvanına qulağa xoşgələn fikirlər səsləndirməklə gərginliyi yumşaltmağa çalışırlar.**

Bundan əlavə, Azərbaycan Prezidentinin Moskvada keçiriləcək 9 May paradında iştirakı gözlənilir ki, bu da Rusiya ilə münasibətlərdə yeni dövrün başlanması üçün addım ola bilər. Çünki təyyarəmizin vurulmasından sonra prezident İlham Əliyev Rusiyaya səfər etməyib. Eyni zamanda Rusiya lideri ilə görüşdə təyyarənin vurulmasının müzakirə ediləcəyi də istisna olunmur.

Amma hiss olunur ki, Rusiya təyyarənin vurulması hadisəsini unutdurmaq istəyir. Bu davranış isə strateji müttəfiqlik bəyannaməsinin ruhuna ziddir. Azərbaycan Rusiyaya qarşı həmişə səmimi, dost davranıb, diplomatik addımlarında şimal qonşumuzun həssaslığını nəzərə alıb. Kreml isə vətəndaşlarımızın həlak olması ilə nəticələnən təyyarənin vurulması ilə bağlı Bakının gözlədiyi reaksiyanı hələ də verməməkdədir. Ona görə də son günlər Rusiyadan gələn bəyanatlar fonunda münasibətlərin inkişafına yenidən baxılacağı gözlənilir.

Yeri gəlmişkən, Moskvanın əlaqələri normallaşdırmaq istiqamətində son addımları sırasında ötən ay Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun Bakıya səfəri də vurğulanmalıdır. Matviyenko bildirmişdi ki, Bakı-Qroznı reysini yerinə yetirən “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması Rusiya istintaq orqanları tərəfindən araşdırılır və ona obyektiv qiymət veriləcək.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə qeyd etmişdi ki, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun martın 16-17-də Bakıya səfərinin nəticələri həm Rusiya, həm də Azərbaycan tərəfdən yüksək qiymətləndirilib. Onun sözlərinə görə, bu səfər həm iki ölkənin mətbuatında, həm də bütövlükdə dünyada geniş işıqlandırılıb. Sitat: “Proqram çox zəngin olub. Valentina Matviyenko Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilib, Birinci vitse-prezident Mehriban Əliyeva, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşlər keçirib, parlamentlərarası əməkdaşlıq üzrə ikitərəfli komissiyanın 22-ci iclasının açılışında iştirak edib”.

İki ölkə əlaqələrinin gələcəyi ilə bağlı danışan **deputat Elman Nəsirov** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan-Rusiya münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Onun sözlərinə görə, imzalanmış birgə bəyannamə münasibətlərimizin məlum səviyyəsini təmin edib: “Fundamental məsələlərdə hər iki dövlətin mövqeyi üst-üstə düşür. Həm siyasi reallıq, həm də ticari-iqtisadi münasibətlər inkişaf tempinə malikdir. Lakin AZAL-a məxsus təyyarənin qəzaya uğramasından sonra ikitərəfli münasibətlərdə soyuqluq hiss olunmağa başladı. Həmin dövrdə cənab Prezident İlham Əliyev hər zaman olduğu kimi, yenidən prinsipial və qətiyyətli mövqeyini ortaya qoydu. Azərbaycan-Rusiya münasibətləri mehriban qonşuluğa əsaslanır. Azərbaycan və Rusiya strateji tərəfdaş, müttəfiqdirlər, ancaq bu o demək deyil ki, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi, o cümlədən milli maraqlarla bağlı məsələlərdə kiməsə güzəştə gedə bilər”.

**E.Nəsirov qeyd etdi ki, heç kim bizdən belə yanaşma gözləməsin:** “Təyyarə qəzasından sonra Azərbaycan Prezidenti bildirdi ki, birincisi, Rusiya rəsmi qaydada üzr istəməlidir, ikincisi, təzminat ödənməlidir, üçüncüsü isə cinayətkarlar cəzalandırılmalıdır. Birinci və ikinci məsələlər öz həllini tapıb. İstərdik ki, cinayətkarlar da tez zamanda cəzalandırılsın. Bütün bu addımlar münasibətlərdəki gərginliyin aradan qaldırılmasına xidmət edir. Rusiyanın yüksək rütbəli şəxslərinin, xüsusilə Valentina Matviyenkonun Azərbaycana səfəri qarşı tərəfin ölkəmizlə münasibətlərin konstruktiv səviyyədə qalmasında maraqlı olmasının göstəricisi kimi qiymətləndirilə bilər”.

**Onun sözlərinə görə, martın 15-də Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko və Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevə zəng ediblər:** “Putin Prezident İlham Əliyevi İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı Moskvada keçiriləcək təntənəli tədbirlərə dəvət edib. Bütün bunlar ilk növbədə münasibətlərdə gərginliyi aradan qaldırmağa xidmət edir. Hesab edirəm ki, ikitərəfli münasibətlərin inkişafı üçün ciddi əngəl yoxdur. Qarşıya çıxan problemlər dərhal həllini tapmalıdır. Hər bir halda, Rusiya Azərbaycanın prinsipial məsələlərdə qətiyyətli mövqe ortaya qoyduğunu və öz haqqını müdafiə etdiyi gördü. Bu da çox önəmli mesaj idi”.

E.Nəsirov sonda əlavə etdi ki, Azərbaycan ənənəvi mehriban qonşuluq münasibətlərinin qorunub saxlanmasında hər zaman maraqlıdır.

Yada salaq ki, Azərbaycanla Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 33 ili tamam olur. Bu münasibətlə, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Rusiya xarici işlər naziri Sergey Lavrov arasında təbrik məktublarının mübadiləsi baş tutub. Bu günlərdə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Nazir Ceyhun Bayramov məktubda bildirib ki, ötən onilliklər ərzində iki arasında ümumi tarixi dəyərlərə, qarşılıqlı hörmətə və etimada əsaslanan, o cümlədən bir-birinin maraqlarını nəzərə alan ikitərəfli münasibətlər uğurla inkişaf edərək strateji tərəfdaşlıqdan müttəfiqlik münasibətlərinə çevrilib. XİN başçısı vurğulayıb ki, bu gün intensiv ikitərəfli təmaslarla səciyyələnən müttəfiqlik çərçivəsində qarşılıqlı fəaliyyət səmərəli şəkildə möhkəmlənməkdə davam edir.

Nazir onu da əlavə edib ki, Azərbaycan-Rusiya münasibətləri hər iki dövlətin və xalqların mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli şəkildə dərinləşəcək və yeni məzmunla təmin olunacaq.

❑ Nigar HƏSƏNLİ, "Yeni müsavat"

# Pezeşkian ABŞ-a şərt qoydu



**Prezident Məsud Pezeşkian İranın dialoqa sadiqliyini təkrarlayıb, lakin ABŞ-ın də danışıqlarda həqiqi niyyət nümayiş etdirməli olduğunu söyləyib. Musavat.com xəbər verir ki, bu barədə İRNA agentliyinin ingilis dili redaksiyası məlumat yayıb. Qeyd olunub ki, prezident İranın danışıqlara inansa da, “nəyin bahasına olursa-olsun” danışıqlara qoşulmayacağını bildirib.**

“Biz müharibə, gərginlik və ya nüvə silahı axtarmırıq. Biz danışıqlara can atırıq. Bununla belə, amerikalılar həqiqətən danışıqlara getdiklərini sübut etməlidirlər”, - Məsud Pezeşkian deyib.

O qeyd edib ki, İranın nüvə imkanlarından “qeyri-dinc” məqsədlər üçün istifadə etməmək öhdəliyi sadəcə siyasi bəyannamə deyil, onun kökündə İslam İnqilabının Rəhbəri Ayətullah Seyid Əli Xameneinin verdiyi fətva (dini fərman) dayanır. İranın nüvə doktrinası Ayətullah Xameneinin nüvə silahının istehsalını, saxlanmasını və yığılmasını qadağan edən fətvasına əsaslanır.

ABŞ Prezidenti Donald Tramp birinci müddətində birtərəfli qaydada imtina etdiyi sazişin yerinə yeni sazişin imzalanması üçün İranla birbaşa danışıqlara çağırıb. Bununla belə, o, razılaşma əldə olunmasa, İranı bombalayacağı ilə hədələyib. Tehran təhdid və təzyiq altında Vaşinqtonla birbaşa danışıqları istisna etsə də, dolayısı danışıqlar üçün qapını açıq qoyub.

❑ Nigar HƏSƏNLİ, Musavat.com

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# Sülh müqaviləsi üçün kritik gün - cəmi bir saata...

## Mütəxəssislərə görə, Bakının şərti qısa zamanda reallaşa bilər; bunun üçün Paşinyanın əlində müdhiş imkanlar var - iki rəy

**Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bu il imzalana bilər. Əlbəttə ki, əgər rəsmi İrəvan yetərincə siyasi iradə göstərib öz tarixi məsuliyyətini anlasa, nəinki boşboğazlıqla məşğul olsa. Prezident İlham Əliyevin dediyi kimi, "top" çoxdan Ermənistanın meydanındadır.**

"Hökumət sülh müqaviləsini imzalamağa hazırdır". "Yeni Müsavat" xatırladır ki, bunu ötən həftəsonu Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan deyib. "Sülhün alternativi yoxdur və bizim hərəkətlərimiz sülhün yekun bərqərar olmasına yönəlməlidir", - nazir qeyd edib. O, həmçinin bildirib ki, nazirlik konstitusiyanın yeni mətni üzərində işləyir: "Həmin mətn gizli xarakter daşımayacaq və ola da bilməz. Nə vaxtsa ictimaiyyətə açıqlanacaq və hər bir məqam, hər norma cəmiyyətimizin nümayəndələri ilə müzakirə olunacaq. Məncə, 8-10 aydan tez yeni konstitusiya mətninin olması mümkün deyil".

Ermənistanın Müstəqillik Bəyannaməsi ilə bağı müddəanın konstitusiyanın preambulasından çıxarılmasının mümkünlüyü barədə suala Qalyan belə cavab verib ki, onun mövqeyi Konstitusiya Məhkəməsinin bu bəndin çıxarılmasını tövsiyə edən rəyinə uyğundur. Yəni İrəvan bunu istisna etmir. Azərbaycan Prezidenti ötən həftə alman həmkarı ilə Bakıda görüşdə bir daha xatırladıb ki, sülhün iki əsas şərtindən biri konstitusiyaya dəyişiklikdir. Erməni nazir isə yeni konstitusiya mətninin 10 aydan tez hazır olmayacağını deməklə referendumun 2026-dan tez keçirilməyəcəyinə işarə vurub. Hökumət başçısı Nikol Paşinyan hətta 2027-ci ildə keçiriləcəyini anons edib.

Gec deyil? Azərbaycan Ermənistanı həmin vaxta qədər gözləməyə hazırdırmı və ya gözləməlidirmi? O müddət ərzində sərhəddə genişmiqyaslı eskalasiya mümkündürmü? Ancaq bəzi analitiklərə görə (Elçin Mirzəbəyli, Elxan Şahinoğlu), Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddiası ilə bağlı müddəanı çıxarmaq üçün referenduma ehtiyac yox, bunu parlament özü 2\3 səs çoxluğu ilə də ləğv edə bilər - müstəqillik bəyannaməsindən Dağlıq Qarabağla bağlı maddəni çıxarmaqla. Yəni əslində iki il gözləməyə lüzum yox.

Məsələ ondadır ki, Azərbaycana qarşı ərazi iddiası məhz Ermənistanın Müstəqillik Bəyannaməsində əksini tapıb, hansına ki, konstitusiyanın preambula hissəsində istinad var. Bəyannaməni isə parlament qəbul edib. Demək, parlament həmin müddəanı oradan çıxara bilər ki, buna da yarımca saat bəs edər. Hüquqşünaslar nə deyir? Belə bir variant mümkündürmü?

**Hüquqşünas, sabiq millət vəkili Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirdi ki, sülh müqaviləsinin imzalanması Azərbaycandan daha çox Ermənistana lazımdır:** "Lakin erməni cəmiyyəti Azərbaycanla, ümumiyyətlə, türklərlə sülh şəraitində yaşamağa hazır deyil. Bu yaxınlarda müstəqil mərkəzlərdən birinin Ermənistanda keçirdiyi rəy sorğusu bunu bir daha təsdiq edir. Başda Paşinyan olmaqla, Ermənistan hakimiyyəti də sülh müqaviləsinin imzalanmasında maraqlı görünmür. Ermənistan hakimiyyəti sülh müqaviləsinin imzalanmasında maraqlı olsaydı, müxtəlif bəhanələrlə və gülünc təkliflərlə bu prosesi indiyə qədər yubadıb sürətlə silahlanmaya getməzdi".

**Onun sözlərinə görə, Ermənistan hakimiyyəti cəmiyyətin anti-Azərbaycan və antitürk ovqatından istifadə edib revanşizmi saxlamağa çalışır, yarımçıq, istənilən zaman birtərəfli qaydada ləğv edilməsinə hüquqi əsası olan müqavilə imzalamağa üstünlük verir**: "Hazırda sülh müqaviləsinin imzalanmasına əsas maneələrdən biri Ermənistan Konstitusiyasının hazırkı mətnidir. Ermənistan Konstitusiyasında müstəqillik bəyannaməsində müəyyən edilən "milli hədəflərin əsas götürüldüyü qeyd olunur. Müstəqillik bəyannaməsində isə Azərbaycanın keçmiş "Dağlıq Qarabağ" vilayətinin Ermənistana birləşdirilməsi haqqında o vaxtkı Ermənistan Ali Sovetinin qərarında göstərilənlər "milli hədəf kimi müəyyən olunur. Beləliklə, Ermənistan Konstitusiyası Azərbaycan ərazisinin bir hissəsini Ermənistan ərazisi kimi təsbit edir və Azərbaycana qarşı ərazi iddiaları üçün hüquqi əsas yaradır".

**Həmsöhbətimiz əlavə etdi ki, Ermənistan hakimiyyəti ərazi iddialarına imkan verən müddəaları ləğv etmək barədə Azərbaycanın haqlı tələbindən müxtəlif bəhanələrlə hər vasitə ilə yayınmağa çalışaraq bir sıra absurd bəyanatlarla çıxış edir:** "Gah Ermənistan Konstitusiyasında ərazi iddialarının olmamasını bildirir, gah Azərbaycan Konstitusiyasından müstəqillik bəyannaməsinə istinadın çıxarılmasını tələb edir, gah da hər 2 konstitusiyanın Venesiya Komissiyasına hüquqi ekspertizaya göndərilməsini təklif edir və s.

Əslində bu məsələdə Azərbaycanın haqlı tələblərini yerinə yetirmək üçün Ermənistan hakimiyyətinin referendum keçirərək yeni konstitusiya qəbul etməsi bir o qədər də vacib deyil. Belə ki, Ermənistan Konstitusiyasında istinad olunan müstəqillik bəyannaməsi və "Dağlıq Qarabağ" vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərar o vaxtkı Ermənistan Ali Soveti tərəfindən qəbul edilib. Ona görə də hazırkı Ermənistan parlamenti həmin sənədlərə yenidən baxa bilər. Yəni "Dağlıq Qarabağ" vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərarı ləğv edə və müstəqillik bəyannaməsindən isə həmin qərara istinad hissəsini çıxara bilər".

**Q.Əlibəyli onu da qeyd etdi ki, eləcə də Ermənistan Ali Sovetinin Qarabağın Azərbaycanın tərkibində olmasını nəzərdə tutan hər hansı bir sazişi imzalamağı Ermənistan hakimiyyətinə qadağan edən qərar bu qaydada ləğv oluna bilər:** "Ermənistan parlamentinin hazırkı tərkibində Paşinyanın tərəfdarları üstünlük təşkil etdiyi üçün bu qərarların qəbul ediləcəyi şübhə doğurmur. Lakin Paşinyan başda olmaqla, Ermənistan hakimiyyəti ərazi iddialarına hüquqi əsas ola biləcək müddəaları müvafiq sənədlərdən çıxarmaqla sözdən konkret işə keçmək istəmir".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** qeyd etdi ki, Paşinyanın partiyası parlamentdə hakimdir və müstəqillik bəyannaməsinin pleambura hissəsinə qısa zamanda dəyişiklik etmək mümkündür. Onun fikrincə, hakimiyyət belə bir addım atmağa risk etmir və nəticələrindən çəkinir: "Ermənistanda ictimai-siyasi vəziyyət kövrəkdir. Müharibədə biabırçı məğlubiyyət xalqda qisas hissini saxlamaqdadır. Ona görə hakimiyyət radikal addımlar atmağa tələsmir. Bunun iqtidar üçün fəsadlarının olacağı ehtimal edilir".

**Ç.Qənizadə bildirdi ki, Azərbaycan gözləyir, amma Ermənistan sülh razılaşmasında daha çox həvəsli olmalıdır:** "Əgər qarşıdakı 2 ildə sülh müqaviləsi imzalanmasa, yenə də iqtisadi zərərini qarşı tərəf hiss edəcək. Sülh erməni xalqına ən çox lazımdır ki, dünyaya çıxışı təmin edilsin. Əgər müharibə, qan-qada, ərazi iddiaları ilə revanş istəkləri varsa, bunun axırı yoxdur, erməni xalqı növbəti fəlakətə, faciələrə hazır olmalıdır. Biz isə barış əlini uzadırıq: deyirik ki, gəlin, dəmiryol xətti ilə yükləriniz Rusiyaya daşınsın, Türkiyə ilə sərhədiniz açıq olsun... Bunlar da sülh sazişi olmadan mümkün deyil. Bu nöqteyi-nəzərdən cənab Prezidentin dediyi kimi, top Ermənistandadır. Qoy onlar seçim etsinlər".

**Hüquq müdafiəçisi əlavə etdi ki, Paşinyan hakimiyyəti bu prosesi sona çatdırmalıdır və gələcək nəsillərə problem qalmamalıdır:** "Daha iki il məsələ uzanarsa, Cənubi Qafqazda vəziyyətin necə olacağına zəmanət yoxdur. Odur ki, iqtidarda olan Mülki Müqavilə Partiyasının parlamentdəki üzvləri həmin dəyişikliyə getməklə günü bu gün sülh müqaviləsinin bağlanmasına səbəb ola bilər".

❑ **Emìl SALAMOĞLU, "Yenì Müsavat"**





## Ohanyan: "Azərbaycan Zəngəzur dəhlizini əldə edəcək"

**"Ermənistan hökuməti heç olmasa danışıqlarda minalanmış xəritələrdən istifadə etməlidir". "Yeni Müsavat" Tribunainfo.az-a istinadla xəbər verir ki, bunu Ermənistanın keçmiş müdafiə naziri, deputat Seyran Ohanyan deyib. Onun sözlərinə görə, Bakıda mühakimə olunan bir qrup erməni terrorçusunun verdiyi ifadələr Ermənistanın əleyhinə istifadə edilə bilər. "Bakı gələcəkdə Ermənistanı Qarabağ ərazisində terror aktlarında ittiham edərək, ona qarşı hansısa prosesə başlaya bilər. Azərbaycan hazırda bunun üçün bütün imkanları araşdırır. Bakıda ifadə verən erməni hərbçilərinin dediklərindən anlaşılan odur ki, Qarabağda Ermənistan ordusu olub və bu, Azərbaycanın ittiham irəli sürməsi üçün kifayətdir".**

Ohanyan bildirib ki, sülh gündəmi çərçivəsində Ermənistan daim güzəştə gedir: "Azərbaycan bu gün sülhə getməyə hazır deyil və Ermənistan hakimiyyətinə təzyiqləri davam etdirmək üçün hər şeydən istifadə edir". Ohanyan onu da deyib ki, Azərbaycanın iki əsas məqsədi var: "Azərbaycan ən azı Zəngəzur dəhlizinə, maksimum isə Ermənistanı suverenliyindən məhrum etməyə və regionda onun ilhaqına nail olacaq".

**Ohanyan iddia edib ki, guya Qarabağ məsələsi bağlanmayıb:** "Qarabağ səhifəsi bağlanmayıb, münaqişə bitməyib. Bakı buna görə beynəlxalq instansiyalarda cavab verməlidir". Onun sözlərinə görə, Ermənistanda sığınacaq tapmış separatçıların qondarma "dövlət düzəni" saxlanmalıdır. "Bu, qorunmalıdır ki, Qarabağ ermənilərinin qayıtması üçün şərait təmin etmək mümkün olsun. Bundan başqa, Minsk Qrupu formatı bərpa olunmalıdır".

# Evlərimizə girən dəhşətli xəstəlik: bu məhsulları almayın!

## Kolbasa şirkətləri əhaliyə nə yedirir; **ekspertdən çağırış:** "Bu müəssisələr qapıları bağlı, heç kimin nəzarət edə bilmədiyi bir yerə çevrilib"

**Ölkədə kolbasa istehsal edən firmalar, deyəsən, "yarışa" giriblər ki, hansı daha çox keyfiyyətsiz məhsul satışa çıxaracaq. Xüsusən də son günlərdə bir neçə şirkətin məhsulunun içərisindən dəmir parçalarının çıxması faktı göstərir ki, həmin müəssisələrin fəaliyyəti yoxlanılmalı, hətta bu minvalla qapısına möhür vurulmalıdır.**



Misal üçün, "Halal Zəhmət" firmasının kolbasasından dəmir parçası çıxıb. Bu barədə sosial şəbəkədə aparıcı Nübar Əbil şikayət paylaşıb. Şikayətçi bildirib ki, bu kolbasanı almayın: "Görün bizim kolbasalar hansı şəraitdə, necə iyrənc vəziyyətdə ərsəyə gəlir. Bu kolbasanın artıq yarısı yeyilib, bu məsələyə görə "Halal Zəhmət" firması heç məsuliyyət daşıyırmı? Bundan cəmi bir neçə gün əvvəl "SAB" şirkətinin məhsulundan dəmir parçası çıxmışdı".

Ümumiyyətlə, kolbasa və sosis məhsullarından şikayətlər çoxdur. İnternet resurslarında çoxsaylı sübutlara rast gəlmək olar. Təkcə bu iki fakt deyil. Həmin məhsulların tərkibi, keyfiyyəti, hansı inqridentlərdən hazırlanması problem olaraq qalmaqdadır. İnsanların və xüsusən də uşaqların çox sevdiyi bu məhsulların gələcəkdə onkoloji xəstəliklərə də yol açdığı haqda həkimlər dəfələrlə çağırışlar ediblər. İndi isə kolbasaya ət də yox, metal qatıldığı üzə çıxmaqdadır...

Belə hallarda insanlar nə etməlidir? Hansı şirkətlərin kolbasa-sosislərinə etibar eləmək olar?

**İstehlakçı hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "2013-cü ildə Amerikanın bir beynəlxalq təşkilatı Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması ilə bağlı ölkəmizdə Azərbaycan mallarının rəqabətə davamlılıq layihəsini həyata keçirirdi. 5 illik bir layihə idi. Layihənin sonunda həmin beynəlxalq qurum bizə müraciət etdi ki, Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanını müəyyən edək. Beynəlxalq və yerli ekspertlərin köməyini bəzi müəssisələrə verək ki, istehlakçılar bu mallara üstünlük versinlər. Bizim əməkdaşlara müəyyən treninqlər keçirildi. Nəticədə belə bir nişan dövlət qeydiyyatına alındı, dövlət orqanlarına məlumat verildi. SAB və "Zəhmət Ruzi" eyni şirkətlərdir. Biz 5 müəssisəyə, o cümlədən SAB və "Zəhmət Ruzi"yə bu nişanı verdik. Hazırda SAB süd məhsullarının üzərində Azad İstehlakçılar Birliyi tərəfindən təsis edilmiş qida təhlükəsizliyi nişanı var. Həmin nişanın tələblərinə görə ildə bir dəfə orada monitorinq keçirilməli, qiymətləndirmə olmalıdır və sairə. Lakin nişan veriləndən sonra SAB, "Zəhmət Ruzi" heç kəsi yaxın buraxmadı. Orada biz 2013-cü ildən bəri bir dəfə də olsun baxış keçirə bilməmişik. Heç kəs orada baxış keçirə bilmir. Lakin nişandan istifadə olunur. Və bu onu bir daha göstərir ki, bu özünü bağlı-qapalı elan etmiş bir müəssisədir. Heç kəs burada monitorinq apara bilməz, baxış apara bilməz, hətta beynəlxalq təşkilat səviyyəsində verilmiş nişanın nə vəziyyətdə olduğunu yoxlamaq da mümkün deyil. Təəssüf ki, belə hallar var. Bizim ofisimizdə kolbasa məhsullarının içərisindən insan dişinin çıxması, tük çıxması da olub. Dəmirin çıxması isə çox qeyri-adi bir haldır. Onu qeyd edim ki, özünə hörmət edən əhəmiyyətli müəssisələrdə metal detektor deyilən cihaz olur. Əgər orada onun tərkibində metal varsa, onu müəyyən edir və o məhsulu kənara atır. Deməli, belə çıxır ki, həmin müəssisədə tam antisanitar vəziyyət var ki, ora hətta metal qırıntısı da düşür. Düzdür, bəzən həmin məhsullar rəqabətdə olan müəssisənin də işi ola bilər, yaxud oradan qovulmuş adamların da işi ola bilər. Lakin birmənalı deyim ki, SAB və ya "Zəhmət Ruzi" müəssisəsi qapıları bağlı, heç kimin nəzarət edə bilmədiyi bir müəssisəyə çevrilib. Belə bir şəraitdə AQTA-nın işi tənqid olunmalıdır. Əslində agentliyin əsasnaməsində cəld yoxlama imkanları yoxdur. Onun əsasnaməsi dəyişməlidir. Hökumətin biznes qurumlara müdaxilənin qarşısının alınmasına dair siyasətini biz də dəstəkləyirik. Biznes qurumlara heç kəs rüşvət verməməli, onlara heç kəs müdaxilə etməməlidir, çünki o verilən rüşvətlər də nəticədə istehlakçıdan çıxır. Lakin qida sahəsində dövlət qurumları tərəfindən cəld müdaxilələr təmin olunmalıdır. Çox təəssüf ki, belə bir müdaxilə mümkün deyil. Heç bir dövlət qurumunun ixtiyarı yoxdur ki, xəbərdarlıq etmədən yoxlama keçirsin. Başqa sözlə, AQTA-nın əl-qolunun bağlı olduğu bir şəraitdə belə hallar müşahidə olunur. Çox təəssüflər olsun ki, Qida Təhlükəsizliyi Agentliyi malların təhlükəsizliyini təmin edir, keyfiyyət məsələsi isə hələ də masanın üstündə qalıb. Demək olar ki, keyfiyyətlə heç kəs məşğul olmur. Və belə müəssisələrə vəziyyətdən sui-istifadə edilir. İstisna olunmur ki, qeyri-ənənəvi heyvan ətləri bəzi ət istehsalı müəssisələrində rast gəlinə bilər. Ölkənin əmtəə bazarında çox sayda təsirsiz kolbasa-sosiska məhsulları var. Xüsusən ana marketlərdə bunlar satılır".

**Ekspert əlavə edib ki, birinci növbədə insanlar, istehlakçılar diqqətlə kolbasaların etiket məlumatlarını oxumalıdır:** "Orada şübhəli bir məqam görərlərsə, bu zaman maldan şübhələnə bilərlər. Ümumiyyətlə, xaricdən gələn kolbasa-sosiska məmulatlarında etiket məlumatları Azərbaycan dilində deyilsə, belə məmulatdan imtina etsinlər. Xüsusən Rusiyadan, Ukraynadan və digər ölkələrdən gələn kolbasalarda ehtiyatlı olsunlar. Ən çox təhlükəli kolbasalar onlardır. Çünki onlar uzaq yol gəlmək üçün çoxlu kimyalaşır. Baxmayaraq ki, sanki dadları yaxşıdır. Hər halda, bütün hallarda yerli mallara üstünlük versinlər, yəni istehlakçı etiket məlumatından qaynaqlana bilər. Üstəlik, hansı malın buraxılma tarixində yararlılıq müddəti arasındakı məsafə azdırsa, o mala üstünlük versinlər".

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Oliqarxiya və dünya siyasəti...

**Doxsanıncı illərdə bir ABŞ milyarderi vardı - Ross Pero. İki dəfə - 1992-ci və 1996-cı illərdə prezident seçkilərində iştirak etdi, amma hər iki dəfə vəkil Bill Klintona uduzdu. O vaxt məndə belə fikir yarandı ki, böyük siyasətdə böyük pullar at oynatsa da, hər halda, siyasət tamamilə pul da demək deyil, burada başqa meyarlar da rol oynayır.**

**Hüseynbala SƏLİMOV**



Amma bunu indi -Tramp və dəstəsi hakimiyyətə gələndən sonra deyə bilmirəm. Üstəgəl, hələ bundan da xeyli əvvəl neçə-neçə amerikalı politoloq haray çəkirdi ki, bəs ABŞ-da oliqarxiya hakimiyyəti götürüb.

Bu termin - oliqarxiya, az qala, Platonun və Aristotelin dövründən işlənməyə başlayıb və hətta bu iki filosof bunu heç də müsbət mənada işlətməyib. Belədəsə, onun ən sadə və ya anlaşıqlı yozumu budur ki, oliqarxiya siyasi və iqtisadi hakimiyyətin birləşməsi və bir neçə adamın əlində cəmləşməsidir.

Təsəvvür edin, hər şey bir yana, ABŞ-da 400-500 adamın sərvəti ölkə vətəndaşlarının yarısının sərvətindən daha çoxdur!..

Aydın məsələ idi ki, belə bir hal gec-tez ABŞ-ın böyük siyasətində əksini tapacaq və bu hazırda baş verir: Tramp və İlon Mask (may ayında vəzifəsindən uzaqlaşacağı, amma baş məsləhətçi kimi qalacağı bildirilir) ölkənin siyasətini az qala, böyük bir şouya çevirib və heç kim də demir ki, Tramp bir yana, axı Maskın siyasətdə nə işi var?..

Mən heç bir vaxt böyük kapital təmsilçilərini sevməmişəm, çünki onların bu qədər gəliri necə əldə etməsini düşünərkən ilk ağla gələn "istismar" sözü olur. Axı ola bilməz ki, bu adamların şirkətlərində insanların böyük əksəriyyəti ən yaxşı halda yaxşı maaş aldığı halda bir-iki adamın sərvəti az qala, yüz milyardlardan çox olsun!..

Bu necə bölgüdür? Niyə görə belə olur? Çox təəssüf ki, bu sualın heç vaxt ağlabatan cavabı tapılmır: doğrudanmı, hətta universiteti tamam bitirməmiş Bill Qeyts və yaxud da indi meydan sulayan İlon Mask hamıdan ağıllıdır? Mən başa düşürəm, "biznes ideyası" deyilən anlayış da var və hər adamın ağlına gəlmir bu! Bir dəfə hesalamışdılar ki, əslində Eynşteyn dünyanın ən varlı adamı olmalı idi, amma olmadı. Bu boyda adam adi bir alim həyatı yaşadı. Bəlkə də ona görə ki, öz kəşflərini "biznes ideyası"na qədər inkişaf etdirməyə çalışmadı, hərçənd onun texniki ixtiraçılığa, yəni mühəndisliyə böyük həvəsi vardı, amma özünü yalnız böyük nəzəriyyəçi fizik kimi təsdiq edə bildi...

O ki qaldı oliqarxiyanın siyasi məqamlarına, çox varlı adamlar, böyük kapital heç vaxt demokratiyaya - filana maraqlı olmur, daha doğrusu, müəyyən müddətə qədər iqtisadi azadlıqları dəstəkləyirlər, fəqət, elə ki, əllərində böyük kapital cəmləşir, başlayırlar inhisarçılığa, hətta sosial hüquqları belə pozmağa...

Hələ 90-cı illərdə diqqətimizi bir detal cəlb etmişdi: dünya QHT-ləri, hüquq-müdafiəçiləri transmilli şirkətləri insan hüquqlarının pozucusu kimi hətta dövlətlərlə bərabər tuturdular. Bəli, onlar hər yerdə ucuz və hüquqsuz, demək olar, müdafiəsiz işçi qüvvəsi axtarırlar! Bu elə bir vaxt idi ki, biz, əksinə, həmin transmilli şirkətlərə yalvarırdıq ki, gəlin bizim sərvətlərimizi - neftimizi və qazımızı hasil edin və bizə də bu sərvətlərin, heç olmasa, bir hissəsini verin...

Ən maraqlısı budur ki, böyük kapital - oliqarxiya təkcə ABŞ-da hakimiyyətini rəsmiləşdirmədi. Hətta postsosialist və postsovet ölkələrinin çoxunu oliqarxlar idarə edir. O gün oxuyuram ki, bəs keçmiş Ukrayna prezidenti, oliqarx Poroşenko ötən il yüz milyon dollardan çox qazanıb! Sual olunur: xeyir ola? Necə olur ki, ölkə müharibə içində boğulur-batır, amma bunların sərvəti ildən-ilə artır?

İndiki hakimiyyətlə bağlı söz deyə bilmərəm, amma hətta indinin özündə də bəziləri ölkəyə yönəldilən milyardlarla dollar hərbi-texniki yardımın və maliyyə dəstəyinin çox hissəsinin harasa sovrulduğu haqda haray çəkirlər!..

Elə götürək böyrümüzdəki Gürcüstanı. Neçə illərdir, onu bir oliqarx "fırlatmırmı"? Ona görə etiraf etmək lazım gəlir ki, bəli, Dünya böyük kapital - oliqraxiya qarşısında çoxdan təslim olub, elə bu səbəbdən hələ çox siyasi sürprizlər olacaq. Bunları nə demokratiya maraqlandırır, nə də bazar iqtisadiyyatı! Daha çox sərvət, daha çox maddi kapital və daha çox da hakimiyyət - bunların can atdığı hədəflər budur...

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# CHP-də fövqəladə seçki: Ərdoğanın əsas rəqibi dəqiqləşdimi...

**Xəbər verildiyi kimi, Türkiyənin əsas müxalifət partiyası olan Cümhuriyyət Xalq Partiyası (CHP) aprelin 6-da Ankarada fövqəladə qurultayını keçirib. CHP sədri Özgür Özəl 1171 səslə yenidən partiyanın rəhbəri seçilib. 105 səs etibarsız sayılıb.**

CHP-nin qurultayına keçmiş partiya liderləri Altan Öymen, Hikmət Çətin, Kamal Kılıçdaroğlu və keçmiş SHP Partiya lideri Murat Karayalçın, bələdiyyə başçıları, fəxri üzvlər və nümayəndələr qatılıb. Konqres zalında Özgür Özəlin yanındakı yer İstanbul Böyükşəhər Bələdiyyəsinin (İBB) sədri vəzifəsindən uzaqlaşdırılan Əkrəm İmamoğlu üçün ayrılıb.

Özgür Özəlin təzədən CHP sədri seçilməsi hansı anlama gəlir? Qarşıdakı dönəmdə Ərdoğan hakimiyyətinin əsas rəqibinin dəqiqləşdiyini söyləmək olarmı?









**Əhəd Məmmədli:** "İmamoğlu həbsdə qalarsa, Özəl prezidentliyə namizəd ola bilər"
**Kənan Rövşənoğlu:** "Növbədənkənar seçkilər olsa belə, əsas namizəd İmamoğludur, ehtiyat namizəd isə..."
**Taleh Şahsuvarlı:** "CHP əsl iqtidar mübarizəsi aparacaq və şanslar tən yarıdır"

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli** "Yeni Müsavat"a bildirdi ki, Kamal Kılıçdaroğlunun namizəd olmayacağı bildiriləndən sonra Özgür Özəlin yenidən CHP başqanı seçilməsi gözlənilən idi: "Özgür Özəl CHP-nin ənənəvi milli-kamalist qolunun deyil, daha çox kapitala söykənən liberal, kosmopolit cərəyanının nümayəndəsidir. Onu CHP-nin əvvəlki başqanları olan Kamal Kılıçdaroğlu və Dəniz Baykaldan fərqləndirən də yuxarıda qeyd etdiyim nüansdır. Fikrimcə, CHP-nin transformasiyası gedir. Yəni yeni siyasi cildə girirlər. Özgür Özəl-Əkrəm İmamoğlu cütlüyü klassik sol-kamalist CHP-dən uzaqlaşıb, burjuaziya, oliqarxiyaya dayanıqlı bir partiya qurmaq istəyirlər. Onlar elə düşünürlər ki, daxildən kapitala, xaricdən isə Qərb dövlətlərinin dəstəyinə söykənməklə CHP-ni nəhayət ki, iqtidara gətirəcəklər. Bu yolun CHP üçün nə qədər uğurlu olacağını zaman göstərəcək".

**Ə.Məmmədli hesab edir ki, CHP-nin ənənəvi yöntəmdən çıxarılması yanlış addımdır:** "CHP və müttəfiqlərinin son bələdiyyə seçkilərində qələbə çalması, ardınca partiya qurultayında İmamoğlunun projesi sayılan Özəlin qalibiyyəti ana müxalifətin içdən dəyişməsinə təkan verdi və yenilənmə prosesini sürətləndirdi. Bəzi CHP-çilərin rəsmi şikayətindən sonra İmamoğlunun korrupsiyada ittiham olunması və ardınca həbs edilməsi partiya üçün yeni situasiya yaratdı. Ola bilsin ki, belə bir vəziyyəti kamalist düşərgəsində gözləyirdilər və buna hazır idilər. Çox güman ki, İmamoğlu və Özəlin bu cür gedişatdan, yeni həbs duyumları ola bilərdi. Əks halda, İmamoğlu özünü CHP-nin prezidentliyə vahid namizədi elan etməzdi".

**Ekspertin fikrincə, Özəlin yenidən başqan seçilməsi partiyada yeni kursun dəstəklənməsi anlamına gəlir:** "O deməkdir ki, klassik-solçu kamalizmi kapitalist-liberal CHP əvəzləyir. Düşünürəm ki, İmamoğlu-Özəl cütlüyü CHP-ni solçu-xalq partiyasından çıxarıb sekulyar - oliqarxik təşkilat edir. Necə deyərlər, siyasət bahalı oyundur. Müasir siyasətdə isə pulsuz ciddi-real durum mümkünsüzdür. İndi CHP, görünür, təkcə ənənəyə, keçmişə deyil, həm də populizm və böyük maliyyəyə söykənir".

**Ə.Məmmədli istisna etmir ki, İmamoğlunun cinayətləri sübut olunacağı və uzunmüddətli həbs olunacağı təqdirdə Özəlin prezidentliyə namizəd yolu açıla bilər:** "Düzdür, CHP-də Özəl və İmamoğlu üçün Mansur Yavaş əngəli də var. Mansur Yavaş Əkrəm İmamoğlu kimi CHP-yə sonradan gəlib. Özəldən fərqli olaraq Yavaş da İmamoğlu kimi CHP şinelindən çıxmayıb. Yavaşın bir MHP keçmişi var".

**Siyasət yazarı Kənan Rövşənoğlu hələ ki Özəlin namizəd olma şanslarını partiyada üçüncü görür:** "Bilindiyi kimi, istintaq orqanları CHP-nin sonuncu qurultayında nizamnaməyə və qanunlara zidd hərəkətlərin olması ilə bağlı tədqiqata başlamışdı. İddia edilirdi ki, partiyadan bununla bağlı şikayət edilib. Bu isə o demək idi ki, hakimiyyət CHP-dəki qurultayın nəticələrinin saxtalaşdırıldığını əsas gətirərək qurultay nəticələrini ləğv edə və partiyaya müvəqqəti olaraq sədr əvəzi qəyyum təyin edə bilər. Bu planın qarşısını almaq, yeni qəyyum təyinatını pozmaq üçün CHP rəhbərliyi növbədənkənar qurultay elan etdi, sədr və yeni rəhbərlik seçdi. Bununla da faktiki olaraq qurultayla bağlı təhqiqat işi pozuldu. CHP-nin sədri Özgür Özəl olsa da, prezidentliyə namizəd Əkrəm İmamoğludur. Martın 23-də keçirilən praymerizdə bununla bağlı qərar yekdilliklə, özü də təkcə CHP üzvləri deyil, ölkə əhalisinin mühüm bir çoxluğu tərəfindən qəbul olunub. Ümumiyyətlə, əvvəldən CHP-də prezidentliyə namizəd kimi iki nəfərin adı çəkilirdi. İmamoğlu və Ankara meri Mansur Yavaşın adı. Hətta bəzi rəy sorğularında Yavaş İmamoğlunu qabaqlayır. Ancaq Yavaş praymerizə ehtiyac görmədi və ilkin seçkilərə qatılmaqdan imtina etdi. Özəlin isə reytinqi əvvəldən də yüksək deyildi, üstəlik, ehtimal olunurdu ki, Özəlin CHP sədri seçilməsi zamanı İmamoğlu və Özəl arasında razılaşma olub. Yəni indiki halda Özəlin prezidentliyə namizəd olması ilə bağlı hər hansı söhbət yoxdur".

**Təhlilçiyə görə, növbədənkənar seçkilər olsa belə, əsas namizəd İmamoğludur, ehtiyat namizəd isə Mansur Yavaş:** "Ancaq son hadisələr də göstərdi ki, Özəl cəsarətlidir və partiyanın hakimiyyətə qarşı dinc mübarizəsini təşkil edə bilir. Bu da onu lider kimi tanıtdı. Ancaq dediyim kimi, Özəl bütün rəy sorğularında İmamoğlu və Yavaşdan geridədir. Və hazırda İmamoğlunun azad edilməsi üçün CHP-nin başçılığı ilə ictimai kampaniya davam edir".

**Siyasi şərhçi Taleh Şahsuvarlı hesab edir ki, Türkiyədə siyasi gündəm yaxın gələcəkdə daha da qızışacaq:** "Özgür Özəlin sədr olacağını hələ Kılıçdaroğlunun "qılıncının dalı da, qabağı da CHP-də kəsəndə" proqnozlaşdırmışdım. Onun başçılığı ilə CHP qarşıdakı dövrdə sözün əsl mənasında iqtidar mübarizəsi aparacaq. Hazırda şanslar tən yarıdır: 42:42%.

Türkiyənin növbəti prezidenti 10% sağ mərkəzdən səs alacaq namizəd olacaq. Əgər İmamoğlu həbsdən çıxmasa və ya diplom məsələsi hüquqi baxımdan çözülməsə, partiya seçkiyə Özgür Özəlin namizədliyi ilə getsə, sağ mərkəzçi elektoratdan 10% səs ala bilərmi? Ala bilər. Əgər diqqət edirsinizsə, o, hər fürsətdə CHP-nin Atatürkün partiyası olduğunu vurğulayır və bu amil üzərindən sağ mərkəzə açılmaq istəyir. Ərdoğanın özünün və ya AKP-nin başqa bir namizədinin həmin 10% səsi almaq imkanı varmı? Var! Odur ki, Türkiyədə siyasi gündəm son dərəcə qızğın və gərgin olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




## Türkiyə Suriyada hərbi bazalar qurur, İsrail narahatdır

**İsrail türk hərbçilərinin Suriyanın Colan təpələri yaxınlığında yerləşdirilməsinə imkan verməək niyyətində deyil. "AzPolitika" "Ynet" agentliyinə istinadla bildirir ki, gələn həftə Vaşinqtonda İsrailin Baş naziri Benyamin Netanyahu ilə ABŞ Prezidenti Donald Tramp arasında keçiriləcək görüşdə Türkiyənin bölgədəki mövcudluğu müzakirə olunacaq. Nəşr bildirir ki, İsrail Türkiyənin Suriyadakı bazalarından pilotsuz təyyarələr və hava hücumundan müdafiə sistemlərini yerləşdirmək üçün istifadə edə biləcəyindən ehtiyat edir ki, bu da sərhəd müdafiə səylərini çətinləşdirəcək və hərbi münaqişəyə səbəb ola bilər.**

Eks-prezident Bəşər Əsəd rejimi keçən ilin sonunda süqut etməzdən əvvəl, İsrail tərəfinin rabitə qurduğu iddia edilən Suriyanın İsraillə həmsərhəd bölgəsində Rusiya qüvvələri var idi. "Türkiyə ordusu bölgəyə gələrsə, İsrail öz vətəndaşlarını qorumaq üçün istənilən hərəkəti diqqətlə nəzərdən keçirməli və bu cür hərəkətlərin Türkiyə ilə hərbi münaqişəyə gətirib çıxarıb-çıxarmayacağını nəzərə almalı olacaq", - məqalədə qeyd olunur.

"Ynet" yazır ki, İsrail də Türkiyənin himayəsi altında Suriyadan Qəzza zolağına qədər İranın şiə təsirini əvəz edə biləcək sünni islamçı oxunun formalaşmasından narahatdır. Eyni zamanda, Türkiyə İsraillə diplomatik əlaqə kanallarını saxlayır və dialoq davam edir. İsrail vəziyyət sabitləşənə qədər Suriyanın ABŞ, Rusiya, Türkiyə və keçid hökumətinin iştirakı ilə müvəqqəti təsir zonalarına bölünməsini təklif edir. Suriyanın yeni təyin olunmuş Nazirlər Kabinetinin beş il müddətinə fəaliyyət göstərəcəyi gözlənilir. Bu müddət ərzində ölkə Konstitusiyasına lazımi düzəlişlər ediləcək və ümumi seçkilər keçiriləcək.

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

**ABŞ Prezidenti Donald Trampın tətbiq etdiyi tariflər, onlara cavab olara ABŞ-a qarşı atılan addımlar dünya iqtisadiyyatında böyük xaos yaradıb. Ağ Ev tarifləri elan etdikdən sonrakı iki gün ərzində fond bazarlarındakı eniş nəticəsində Amerikanın texnologiya nəhəngləri 3 trilyon dollara yaxın itkiyə məruz qaldılar. Bundan əlavə, ABŞ valyutası olan dollar altılıq səbətə qarşı 3 faizdən çox dəyər itkisinə məruz qalıb.**



# Trampın siyasəti ABŞ-ı, yoxsa dünya iqtisadiyyatını dağıdacaq - Azərbaycan üçün təsirlər...

## **Ekspert:** "Bu ilin sonu, gələn ilin əvvəlində böyük dəyişikliklərin şahidi ola biləcəyik"

Bu həftənin ilk iş günündə Asiyanın və Avropanın əsas fond bazarlarında kəskin eniş yaşanıb, proses hələ də davam edir. Eyni zamanda xammal bazarları, xüsusilə də neft bazarında qiymətlər sürətlə düşür.

Analitik mərkəzlərə və investorlara görə, fond və xammal bazarlarında belə enişə 1987-ci ilin "qara bazar ertəsi"ndən sonrakı müddətdə ilk dəfədir rast gəlinir. Bildirilir ki, Tramp administrasiyası tarif siyasətinə ciddi korrektələr etməsə, Avropa İttifaqı və Çin kimi iki böyük iqtisadiyyat ABŞ-la iqtisadi-ticari əlaqələri sürətlə zəiflədəcək. Çin artıq ABŞ-dan bütün idxala 34 faizlik rüsum tətbiq edib, ABŞ şirkətlərinin ölkədə işləmək imkanlarını kəskin məhdudlaşdırıb. Avropa İttifaqı Çin qədər kəskin olmasa da, aprelin 15-dək ABŞ-dan idxala rüsumları artırmağa başlayır.

ABŞ-da Tramp administrasiyasının siyasətinə qarşı kütləvi etirazlar başlayıb. Artıq ABŞ analitik mərkəzləri, tanınmış alim və iqtisadçılar verilən qərarların ölkənin özünə daha mənfi təsir edəcəyinə dair xəbərdarlıqlarla çıxış edirlər.

**Amerikalı iqtisadçı Barri Eyxenqr "Financial Times" qəzeti üçün yazdığı məqaləsində qeyd edir ki, dollar ABŞ Prezidenti Donald Trampın siyasəti səbəbilə dünyanın aparıcı valyutası rolunu itirə bilər. Onun sözlərinə görə, iqtisadçılar adətən dolların böyük rolunu ABŞ-ın qlobal ÜDM-dəki payı, eləcə də ABŞ maliyyə bazarlarının dərinliyi və likvidliyi ilə əlaqələndirirlər:** "Hazırda maliyyə bazarı iştirakçıları hesab edirlər ki, ABŞ dünyanın aparıcı iqtisadiyyatı olaraq qalır və dollara heç bir təhlükə yoxdur".

Ardınca o, tarixçilərə istinadla bildirir ki, valyutaların yüksəlişini və enişini idarə edən iqtisadi vəziyyət və bazarlar yox, real insanların hərəkətləridir: "Beynəlxalq dolları yaradan institutların yaradılması istiqamətində mühüm addımları atanlar məhz insanlar olub. Və bu institutların yaşayıb-yaşamayacağını, yoxsa dağılacağını da məhz insanlar müəyyən edəcək".

İqtisadçı qeyd edib ki, dolların hökmranlığı indiyədək ticarət, ittifaqlar və institutlar üzərində qurulub, lakin bu dövr artıq sona çatmaq riski altındadır. Onun fikrincə, Trampa digər ölkələrlə münasibətləri və qarşılıqlılıq prinsipini zəiflətmək, hətta tamamilə məhv etmək üçün cəmi bir neçə ay vaxt lazım olub. "ABŞ Prezidenti və onun administrasiyasının rəsmiləri dolların təxminən bir əsrlik hökmranlığının əsaslandığı dəyərləri şübhə altına alır", - təhlilçi vurğulayıb.

**Trampın seçki kampanisına ciddi dəstək vermiş milyarder, "Pershing Square Capital Management hedcinq" Fondunun təsisçisi və rəhbəri, investor Bill Eykman ABŞ prezidentinin idxala hərtərəfli rüsumların tətbiqi qərarını səhv adlandırıb:** "Mən qəti şəkildə inanıram ki, aprelin 9-da bütün dünyaya qarşı onların bizə tətbiq etdiyindən daha yüksək tariflərin tətbiqi yanlışdır".

O qeyd edib ki, nəhəng və qeyri-mütənasib tariflər tətbiq etməklə və qlobal iqtisadi müharibəyə başlamaqla Birləşmiş Ştatlar onun ticarət tərəfdaşı, biznes qurmaq və kapital qoymaq bazarı kimi etibarını sarsıdır.

Eykman hesab edir ki, digər ölkələrlə ədalətsiz ticarət təcrübələrini aradan qaldıracaq və ABŞ-a trilyonlarla dollarlıq xarici sərmayə cəlb edəcək danışıqlara imkan vermək üçün tarifləri 90 gün müddətinə dayandırmaq məqsədəuyğundur: "Əgər aprelin 9-da dünyanın hər bir ölkəsinə qarşı iqtisadi müharibəyə başlasaq, biznes investisiyaları dayanacaq, istehlakçılar pul kisəsini gizlədəcək və ABŞ-ın reputasiyasına bərpası illər, bəlkə də onilliklərlə vaxt aparacaq böyük zərər dəyəcək".

**Məşhur amerikalı iqtisadçı, Kolumbiya Universitetinin professoru Cefri Saks "Common Dreams" nəşrində dərc olunmuş məqaləsində bildirib ki, Donald Tramp qlobal ticarət sistemini məhv edir və fundamental iqtisadi səhvə yol verir. Onun fikrincə, Ağ Evin dünyanın əksər ölkələrinə qarşı idxala tətbiq etdiyi yüksək tariflər "ABŞ-ın ticarət kəsirini azaltmayacaq, əksinə, amerikalıları yoxsullaşdıracaq və digər ölkələrə zərər verəcək":** "Amerikanın ticarət kəsiri Amerikanın korporativ hakim sinfinin israfçılığının nəticəsidir. Daha dəqiq desək, bu, varlıların vergiyə cəlb edilməsi nəticəsində yaranan xroniki olaraq böyük büdcə kəsirlərinin nəticəsidir. Büdcə kəsiri Kanadanın, Meksikanın, yaxud ABŞ-a ondan aldığından çox satan digər ölkələrin xəyanətinin nəticəsi deyil."

**Müəllif xatırladır ki, 2024-cü ildə ABŞ 4,8 trilyon dollarlıq mal və xidmət ixrac edib, 5,9 trilyon dollar idxal edib, nəticədə 1,1 trilyon dollarlıq ticarət kəsiri yaranıb. Amerikalı professor qeyd edir:** "Amerika qazandığından daha çox xərcləyir və fərqi dünyanın qalan hissəsindən götürür". Onun təhlilinə görə, Trampın aprelin 2-3-də idxal rüsumlarını artırması "Vaşinqtonda dominant korporasiyaların və vergidən yayınanların fiskal məsuliyyətsizliyi davam etdiyi müddətdə ticarət kəsirini azaltmayacaq".

Aprelin 4-də Federal Ehtiyat Sisteminin sədri Jerom Pouell xəbərdarlıq edib ki, artan ticarət müharibəsinin iqtisadi təsiri gözləniləndən daha pis ola bilər. O, tariflərin inflyasiyanı artıracağını və iqtisadi artımı zəiflədəcəyini bildirib.

Hətta Trampın ən yaxın tərəfdarı olan milyarder İlon Mask da üstüörtülü şəkildə də olsa, hazırkı tarif siyasətinin əleyhinə çıxıb. O, bildirib ki, Avropa İttifaqı ilə ABŞ arasında sıfır tariflərin mövcud olduğu azad ticarət sazişi imzalanmalıdır.

**Maraqlıdır ki, D.Tramp özü hələ qüvvəyə minməyən tariflərin müsbət təsirlərindən danışır:** "Neft qiymətləri aşağı düşüb, faiz dərəcələri aşağı düşüb, ərzaq qiymətləri aşağı düşüb, inflyasiya yoxdur və uzun müddət istismar edilən ABŞ artıq tətbiq olunan tariflər sayəsində istismarçı ölkələrdən həftədə milyardlarla dollar qazanır".

**İqtisadçı-ekspert Elman Sadıqovun "Yeni Müsavat"a dediyinə görə, tarif siyasəti Trampın hansısa kaprizindən doğan addım deyil:** "Bir çoxları bunu Trampın kaprizi kimi qiymətləndirirlər. Lakin bu, belə deyil. Məsələ burasındadır ki, ortada bir "xəstə" var - ABŞ iqtisadiyyatı. Bu "xəstə" müxtəlif müayinə və müalicələrə müsbət reaksiya vermədi. Nədi onun xəstəliyi? Birincisi, ABŞ-ın büdcə kəsirinin həcmi 1,8 trilyon dollar təşkil edir, bu il üçün onun 1,9 trilyon dollara çatacağı proqnozlaşdırılır. Bu, ölkə ÜDM-nin 6,4-6,5 faizi deməkdir. Bu, anormal həddir. Normalda maksimum hədd ÜDM-in 3 faizidir. İkinci məsələ, ticarət balansında 1,2 trilyon dollarlıq kəsir var və o da ildən-ilə artır. Nəhayət, üçüncü məsələ, ABŞ-ın dövlət borcu 36 trilyon dollara çatır. Tramp bu xəstəliyin səbəblərini göstərib: ucuz işçi qüvvəsinə görə şirkətlər istehsal müəssisələrini xarici ölkələrə köçürüblər, oradan istehsal olunan məhsullar rüsumsuz ABŞ-a idxal olunur. Beləliklə, ABŞ-ın istehsalı azalır, yaxud zəruri səviyyədə artmır.

Digər tərəfdən, texnologiyalara, texnoloji yeniliklərə o qədər aludə oldular ki, real istehsalı və emalı tamam unutdular. Asiya ölkələri - Çin, Cənubi Koreya, Yaponiya bunu etmədi. ABŞ və Avropa isə istehsal və emalı dayanıqlı məşğulluğun, iqtisadi artımın, makroiqtisadi sabitliyin qarantı kimi gözardı etdilər, indi də acı nəticələrini yaşayırlar. Bir sıra digər ölkələr də onlara baxıb sırf texnoloji inkişafa kökləniblər".

**Ekspertə görə, Trampın rüsum siyasəti klassik anlamda proteksionizm deyil:** "Proteksionizm seçilmiş mallar üzrə tətbiq olunur, kökündən fərqli siyasətdir. Tramp isə bütün məhsullara idxal rüsumu tətbiq edir. O, müəyyən müddət də qoyub ki, danışıqlar aparsın, ayrı-ayrı ölkələrdən ABŞ mallarına qarşı idxal rüsumlarının aradan qaldırılmasına nail ola bilsin. Ayrı-ayrı ölkələrdən artıq ABŞ mallarına sıfır tarif təyinatına dair təkliflər də səsləndirilməyə başlayıb. Bu halda digər ölkələr də həmin ölkələrdən öz mallarına eyni yanaşma tələb edəcəklər. Xüsusi olaraq qeyd edim ki, bu siyasətin doğru olduğunu, Trampın düzgün yol seçdiyini demirəm. Tramp "xəstəni" radikal üsulla - əməliyyat yolu ilə sağaltmaq yolu seçib. Proseslər çox mürəkkəb situasiyanın formalaşmasına doğru gedir.

Düzünü deyim, Trampın, ayrı-ayrı ölkələrə güzəştlər istisna olmaqla, siyasətindən əsaslı şəkildə geri dönəcəyini, geriyə ciddi addım atmasını gözləmirəm. Çünki bu, ABŞ iqtisadiyyatının problemlərinin davam etməsi, daha da böyüməsi demək olar ki, Trampın da buna gedəcəyini düşünmürəm. Bu siyasətin əsas mənfi nəticəsi inflyasiya olacaq. Bunun qarşısını alacaq əsas amil neft qiymətləridir ki, onlar da sürətlə düşür. Tramp neftin 50-60 dollarlıq qiymətini hədəf götürüb.

Hesab edirəm ki, Tramp çox mürəkkəb və riskli siyasət yürüdür. Bu siyasət ABŞ-ın özündən daha çox digər ölkələr, ümumilikdə dünya iqtisadiyyatı üçün təhlükələr yaradır. Tamamilə yeni şərtlər formalaşır ki, bu da bizim kimi xammal ixracından asılı olan ölkələr üçün çox ciddi çağırışlar yaradır. Hər bir ölkənin öz strateji yol xəritəsi olmalıdır, iqtisadiyyata baxış tamamən dəyişməlidir. Neftin bugünkü qiymətləri belə tədiyə balansı üçün ciddi siqnaldır. Belə davam edərsə, biz bir çox istiqamətlərdə siyasətdə ciddi yeniliklər etməli olacağıq. Bunlar fiskal, monetar və proteksionist siyasətləridir. Bu, yalnız Azərbaycanda deyil, bütün dünyada zəruri olan addımlardır. Düşünürəm ki, bu ilin sonu, gələn ilin əvvəlində Azərbaycanda böyük siyasət dəyişikliklərinin şahidi ola biləcəyik".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# İran üzərində "qara buludlar" sıxlaşır

## Tehran Ankaranı hədələyir; cənub qonşumuz ehtiyatlanmaqda haqlıdırmı? - fərqli rəylər

**İran İraq, Küveyt, BƏƏ, Qətər, Türkiyə və Bəhreyni xəbərdar edib ki, əgər ABŞ-ın İrana hücumuna hər hansı yardım edilərsə, o cümlədən hava məkanından istifadəyə razılıq verilərsə, bu, "ciddi nəticələrə" gətirəcək düşmənçilik aktı kimi qiymətləndiriləcək.**

Bu barədə adının çəkilməsini istəməyən yüksək səviyyəli İran rəsmisi "Reuters" agentliyinə bildirib.

Həmin rəsminin sözlərinə görə, Tehran ABŞ-la Trampın təklif etdiyi birbaşa danışıqları rədd edir, lakin Oman vasitəsilə danışıqları davam etdirməyə hazırdır. O qeyd edib ki, Birləşmiş Ştatlar "niyyətlərinin ciddiliyini nümayiş etdirərsə" bu cür danışıqlar tezliklə başlaya bilər.

Məlumatı şərh edən Türkiyə Xarici İşlər Nazirliyi xəbərdarlıqla bağlı heç nə bilmədiklərini, lakin bunun başqa kanallarla da ötürülə biləcəyini söyləyib. Küveyt isə daha əvvəl İranı əmin etmişdi ki, onun ərazisindən hücuma icazə verməyəcək.

"Reuters"in məqaləsində həmçinin deyilir ki, Tehran Moskvanın tam dəstəyinə şübhə edir və Kremlin mövqeyi ABŞ-la danışıqların uğurundan asılı olaraq dəyişə bilər.

Bu arada İranın xarici işlər naziri Abbas Arakçı bir daha ABŞ-la birbaşa danışıqları mənasız hesab etdiyini bildirib. "BMT Nizamnaməsini pozaraq daim güc tətbiq etməklə hədələyən tərəflə birbaşa danışıqlar mənasız olardı", - Arakçı bildirib.

Ölkənin ali dini lideri Əli Xamenei isə silahlı qüvvələrin yüksək döyüş hazırlığı vəziyyətinə gətirilməsi barədə göstəriş verib.

Prezident Donald Tramp daha əvvəl İran rəhbərliyinin Vaşinqtonla dialoqu vasitəçilərlə deyil, birbaşa aparmaq istədiyini söyləmişdi...

İran İraq, Küveyt, BƏƏ, Qətər, Türkiyə və Bəhreyni xəbərdar edib ki, əgər ABŞ-ın İrana hücumuna hər hansı yardım edilərsə, o cümlədən hava məkanından istifadəyə razılıq verilərsə, bu, "ciddi nəticələrə" gətirəcək düşmənçilik aktı kimi qiymətləndiriləcək.

Bu barədə adının çəkilməsini istəməyən yüksək səviyyəli İran rəsmisi "Reuters" agentliyinə bildirib.

İranın bu narahatlığı əsaslıdırmı? Adıçəkilən ölkələrdən hər hansı biri, xüsusən də Türkiyə ABŞ-ın hücumuna yardım edərmi? Edərlərsə hansı ciddi nəticələrə səbəb ola bilər?



**Siyasi şərhçi Aydın Quliyev "Yeni Müsavat"a bildirdi ki, İranın gələcək Amerika zərbələrindən ehtiyatlanması, narahat olması başadüşüləndir:** "Ancaq bu nə qədər başadüşülən olsa da İranın belə vəziyyətdə bir sıra qonşu dövlətlərlə, xüsusən də ən böyük qonşu dövlət olan Türkiyə ilə əsaslı və ya əsaslı olmağından asılı olmayaraq hədə dilində danışmaları özü diplomatik etik qaydalara uyğun gəlmir. Ən azından ona görə ki, İran hazırda bölgədə İsraillə və Amerika ilə necə bacaracağı ilə bağlı həyati bir sualın qarşısında dayanıb. İsraillə və ABŞ-la necə bacaracağının bəlli olmadığı bir şəraitdə digər ölkələrlə də ən azı ritorik diplomatik cəbhənin açılması düzgün yanaşma deyil, İranın özünün zərərinədir. Digər tərəfdən, dediyim kimi, İranın qonşu dövlətlərin bəziləri tərəfindən onun mənafelərinə qarşı addımlar atılacağı ilə bağlı ehtiyatlanması təbii və başadüşüləndir, lakin burada Türkiyənin də həmin sıraya qoyulması başa düşülmür. Ən azı ona görə ki, Türkiyənin bu bölgədə İran da daxil, daim sülh və barışın olması yönündə atdığı addımlar hər kəsə bəllidir. Baxmayaraq ki, Türkiyənin İranla başadüşülən müəyyən regional geopolitik rəqabəti var, Türkiyə İranın kənar dövlətlərin zərbələri ilə sıradan çıxarılması kimi bir oyuna gedəcəyi ağıla batan deyil. İkincisi, bölgədə kənar təzyiqlərə məruz qalan ölkələrin məsələsində Türkiyənin nümayiş etdirdiyi indiyə qədər ki, taktikalar da bunu təsdiq edir. 2003-cü ildə Amerika Türkiyənin ərazisindən keçərək İraqa zərbə endirmək planını ortaya qoyanda Türkiyə buna razılıq vermədi. ABŞ İraqa zərbə endirmək üçün ayrı keçid variantlarından istifadə etməyə məcbur oldu. Elə bu fakta görə o vaxtdan Türkiyə ilə ABŞ-ın münasibətləri tədricən pozulmağa başladı. İndi Türkiyənin İranın mənafelərinə qarşı proseslərə açıq və ya gizli dəstək verəcəyi ilə bağlı İranın şübhələri bu baxmdan başa düşülmür".

**A.Quliyev qeyd etdi ki, siyahıdakı digər ölkələrin bəziləri ilə İranın açıq kəskin rəqabət və hətta düşmənçilik münasibətlərində olduğunu nəzərə alsaq, o ölkələrdən Amerikaya müəyyən dəstəyin verilməsi mümkündür:** "Xüsusilə də 2024-cü ildə İranın İsraillə qarşılıqlı raket atışmaları zamanı bəzi ərəb ölkələrinin İranın mənafeyi əleyhinə siyasət apardıqlarını gördük. Hətta İranın raketlərinin həmin ölkələrin üzərindən keçən zaman həmin ölkələr tərəfindən vurulması, İsrailə yardım göstərimələri ilə bağlı informasiyalar yayılmışdı. İran da bunu bilir və bəzi ərəb ölkələrinə bəribaşdan xəbərdarlıq edir ki, anti-İran kampaniyasına qoşulmaqdan çəkinsinlər. İran bizim qonşu dövlətdir. Bu ölkəyə qarşı kimin hansı addımı atmağından asılı olmayaraq burada hədəf təkcə İran yox, bölgənin bütün sülh və təhlükəsizlik məsələsidir. Bölgə üçün tam yad olan bir ölkənin - Amerikanın İrana qarşı aparacağı hərbi kampaniyalarda müəyyən ərəb ölkələrinin, bəzi region ölkələrinin iştirak etməsi pis və təhlükəli bir ssenari olardı. Bu mənada İranın xəbərdarlığı ölkələr tərəfindən nəzərə alınsa, daha yaxşı olar".

**Politoloq Yusif Bağırzadə isə bildirdi ki, İranın bu ölkələrə xəbərdarlıq etməsi həmin ölkələrin hər birində ABŞ-ın hərbi bazalarının olması ilə əlaqədardır:** "İraqda 12, Bəhreyndə 2, Kuveytdə 8, Qətərdə 1, Səudiyyədə 5, Türkiyədə 2 baza mövcuddur. Ümumiyyətlə isə ABŞ-ın təkcə Yaxın Şərq ölkələrində 46 hərbi bazası var və bu bazalarda 70 minə yaxın ABŞ hərbçisinin olduğu bildirilir ki, onların da sayı İranla gərginlik səbəbilə durmadan artır.

ABŞ-ın bölgədəki ən böyük hərbi bazası Qətərdəki Əl-Udeyd Hava Bazasıdır. Bu bazada ABŞ-ın 10 mindən çox əsgəri var və onarın əksəriyyəti hava qüvvələridir. Yaxın Şərqin ən böyük dəniz qüvvəsi sayılan Bəhreyndə 5-ci donanmaya sahib olan ABŞ ordusu bu ölkədə Şeyx İsa və Məhərraq Hərbi Hava Bazalarını da idarə edir. ABŞ-ın Bəhreyndəki bazalarında 7 mindən çox əsgər yerləşdirilib. ABŞ-ın NATO-dan kənar müttəfiqi statusuna malik Kuveytdə də əsgər sayı 10 mindən çoxdur. Eyni şəkildə Omanda da bir neçə baza ABŞ Hərbi Hava Qüvvələri, Dukm Limanı və Salalah Limanı isə ABŞ Hərbi Dəniz Qüvvələri tərəfindən fəal şəkildə istifadə olunur. Türkiyəyə gəldikdə isə məlumdur ki, burada ABŞ-ın İncirlik və İzmir hərbi bazaları var.

Mümkün hərbi müdaxilə ehtimalında adıçəkilən ölkələrdən hansının öz ərazisindən İrana zərbə endirməyə icazə verəcəyini dəqiq proqnozlaşdırmaq olmasa da, ehtimallar irəli sürmək mümkündür. Səudiyyə Ərəbistanı üçün İran regiondakı ən böyük rəqibdir. Bu ölkə ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyalara qoşulub və İranın nüvə proqramına qarşı sərt mövqeyi ilə seçilir. Amma buna baxmayaraq Ər-Riyadın açıq şəkildə öz ərazisindən İrana zərbələr endirilməsinə imkan yaradacağı və İranın cavab tədbirləri ilə ərazisini zərbə altında qoyacağı ağlabatan deyil. BƏƏ də təhlükəsizlik məsələsində ABŞ-ın mövqeyini dəstəkləsə də, İranla ticarət əlaqələrini də qorumağa çalışır. Qətər və Oman yəqin ki, ənənəvi olaraq ABŞ-la İran arasında dialoq tərəfdarı kimi çıxış edəcəklər və odur ki, onların da öz ərazilərindən İranı hədəf alan fəaliyyətə icazə verəcəkləri inandırıcı deyil. Kuveytin də həmçinin, neytral mövqedə dayanacağı gözlənilərdir.

Burada ən çox zərbə altına düşə biləcək tərəf yəqin ki, Bəhreyn olacaq. Məlumdur ki, bu ökə ABŞ-ın 5-ci donanmasına ev sahibliyi edir. İkinci bir tərəfdən İranın Bəhreynlə bağlı ərazi iddiaları var. Bu ölkədən İran ərazisinin hədəf alınma ehtimalı kifayət qədər yüksək görünür. ABŞ da bu ehtimalları nəzərə alaraq Səudiyyə Ərəbistanı və Bəhreyn ərazisinə aktib şəkildə hava hücumundan müdafiə sistemləri yerləşdirir".

**Y.Bağırzadə dedi ki, Türkiyənin öz ərazisindən İrana zərbələr endirməsinə imkan verməyəcəyi şübhəsizdir. Baxmayaraq ki, İranın regionda mövqelərinin zəifləməsi Türkiyənin maraqlarına cavab verir:** "Amma İrana Türkiyə ərazisindən zərbələr endirilməsinə imkan vermək Türkiyənin İslam coğrafiyasındakı nüfuzu baxımından düzgün yanaşma deyil və o baxımdan da Türkiyənin bu gərginlikdə tərəf yox, vasitəçi qismində iştirakı ölkə üçün daha çox divident gətirə bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## İran XİN: "Hücumlara dərhal cavab veriləcək"

**"ABŞ və İsrail İranın nüvə obyektlərinə zərbə vurulması halında ölkənin Silahlı Qüvvələri tərəfindən ciddi şəkildə cavablandırılacaq". Musavat.com xəbər verir ki, bu barədə İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Bəqai bildirib.**

"İran Silahlı Qüvvələri hər hansı bir təhdidlə mübarizə aparmaq üçün daim öz gücünü artırır. Biz ölkəmizə qarşı hər hansı bir hücum və təcavüzə güclü cavab verəcəyik. İranı təhdid edənlər bilməlidir ki, əgər bu təhdidlər həyata keçirilsə, dərhal sərt cavab alacaqlar", - o qeyd edib.

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025



## Tramp Rusiyaya niyə gömrük rüsumu tətbiq etməyib? - açıqlama

**"ABŞ Rusiyanı yeni rüsumların tətbiq olunacağı ölkələr siyahısına ona görə salmayıb ki, onunla Ukraynadakı müharibənin dayandırılması ilə bağlı danışıqlar aparır". Musavat.com xəbər verir ki, bunu Ağ Evin Milli İqtisadi Şurasının direktoru Kevin Hassett "ABC News" telekanalının efirində bildirib.**

"Aydındır ki, Rusiya və Ukrayna ilə danışıqlar aparılır. Məncə, prezident bu iki məsələni qarışdırmamaq qərarına gəlib. Bu, Rusiyaya digər ölkələrdən tam fərqli münasibət göstəriləcəyi demək deyil", - o bildirib. Bundan əvvəl ölkənin maliyyə naziri Skott Bessent "Fox News"a müsahibəsində deyib ki, ABŞ Rusiya məhsulları göndərilmədiyi üçün rüsum tətbiq olunmayıb. O əlavə edib ki, ABŞ Rusiyaya qarşı sanksiyalar tətbiq edir və bu da Moskva ilə ticarəti faktiki olaraq istisna edir.

2024-cü ildə Rusiya-ABŞ ticarət dövriyyəsi 3,5 milyard dollar təşkil edib. Bu, 1992-ci ildən bəri ən aşağı göstəricidir. 2021-ci ildə, Rusiyanın Ukraynaya tammiqyaslı hücumundan öncə isə bu rəqəm 35 milyard dollar idi. Amma Trampın tarifləri tətbiq etdiyi ölkələr və ərazilər siyahısında yaşayış olmayan Herd və Makdonald adaları da var. Dünya Bankının məlumatına görə, 2022-ci ildə ABŞ həmin ərazilərdən 1.4 milyon dollardan çox mal idxal edib.

Aprelin 2-də ABŞ Prezidenti Donald Tramp ölkənin ticarət tərəfdaşlarının böyük əksəriyyətinə qarşı ticarət rüsumları açıqlayıb. Avropa İttifaqı ölkələrindən idxala 20 faizlik rüsum tətbiq olunub. Böyük Britaniya üçün 10 faiz, bir sıra ölkələr üçün 40 və daha yüksək faizlik rüsum nəzərdə tutulub.

Çin Maliyyə Nazirliyi cavab olaraq bütün Amerika mallarına əlavə 34 faiz rüsum və bəzi nadir torpaq metallarının ixracına məhdudiyyətlər açıqlayıb. Aİ cavab tədbirlərinin hazırlandığını bəyan edib. Avropa Komissiyasının rəhbəri Ursula fon Der Lyayenin sözlərinə görə, ABŞ Prezidentinin qərarı bütün dünyada biznes və istehlakçılara zərbə olacaq.

## Ukraynada seçki payızda keçirilə bilər

**Martın 30-da Böyük Britaniyanın "The Economist" jurnalı Ukrayna hökumətindəki mənbəyə istinadən ölkədə iyulda prezident seçkisinin keçiriləcəyi barədə məlumat yayıb. İddiaya görə, Volodimir Zelenski öz ofisinə atəşkəs əldə edildikdən sonra səsvermənin təşkili ilə bağlı işə başlamağı tapşırıb. Ancaq Ukraynanın rəsmi qurumları iddiaları təkzib edib. Zelenski isə hərbi vəziyyətdə seçkinin mümkün olmadığını müdafiə edir.**

Modern.az-a açıqlamasında Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun mətbuat katibi Qalib Osmanlı bildirib ki, lazımı şərait yaranarsa, ən gec payızda seçki keçirilə bilər:

"Ukraynanın seçkilərə getməsi üçün atəşkəs elan olunmalıdır. Çünki konstitusiyaya görə müharibə şəraitində seçki keçirilə bilməz. Konstitusiyanın 108-ci maddəsinə əsasən Volodimir Zelenski prezident səlahiyyətini davam etdirir. Razmikovun dediyinə görə seçki keçirilərsə, atəşkəs elan olunmalı, müharibə şəraiti aradan qaldırılmalıdır. Seçkilərin vaxtı seçki komissiyası tərəfindən müəyyən edilməli və namizədlərin verilməsi mərhələsinə başlanılmalıdır. Bu da vaxt aparan prosesdir. Ən azı 3-6 ay ərzində bu proseslər həyata keçirilə bilər. Dediklərim baş tutarsa, ən tez yay aylarında, ən gec isə payız aylarında prezident seçkilərinə gedilə bilər. Bu, Rusiya və Ukrayna arasında atəşkəs sazişi imzalanarsa, baş tuta bilər. lakin atəşkəs sazişi imzalanmasa, heç bir halda seçki keçirilə bilməz".

**Q.Osmanlı Dmitro Razumkovun namizədliyi məsələsinə də toxunub:** "Razumkovun Ukraynada müxtəlif çevrələrdə nüfuzu və reytinqi var. Zelenski haimiyyətinin ilk dövrlərində Ali Radanın spikeri olub. O da namizədliyini verib gücünü sınaya bilər. Zelenskini kim əvəz edəcək sualına əvvəlcədən cavab vermək olmaz. Bu, seçki zamanı müəyyənləşə bilər. Bunu əvvəlcədən heç kəs deyə bilməz. Dediyim hallar baş verərsə, xalqın iradəsi nədir, o da olacaq".

**"Ukraynaya qarşı müharibə Rusiya iqtisadiyyatı üçün ağır yükə çevrilib və Rusiyanı ağır böhranla təhdid edir. Lakin ABŞ-ın verdiyi əlverişli bəhanəyə baxmayaraq, Kreml öz aqressiyasını azaltmaq niyyətində deyil".**

# Putin müharibəni buna görə dayandırmır - sensasion gəlişmə

## Rusiya liderinin 9 maya qədər planı nədir? - ekspertdən proqnoz



"Yeni Müsavat" xəbər verir ki, bu sözləri polşalı ekspert Yan Qarner "Foreign Policy" jurnalında yazıb. Analitik qeyd edir ki, hətta Rusiya ordusunun Kursk vilayətində nisbətən əhəmiyyətli uğurları heç bir halda Rusiyanın yaxın gələcəkdə Ukrayna üzərində hərbi qələbəsinin mümkünlüyünü göstərmir. Eyni zamanda müharibə Rusiyanın resurslarını, o cümlədən hərbi texnikanı və insanları dəhşətli sürətlə "yeyir".

Qarner əlavə edib ki, Putin müharibənin bitməsini hakimiyyətinə təhdid gördüyü üçün dayanmır.

Belədirmi? Putinin yaxın aylar üçün, xüsusən də 9 maya kimi planı nədir? Böyük Britaniya Müdafiə Nazirliyinin kəşfiyyat xidməti hesab edir ki, Rusiya qüvvələrinin Ukraynada irəliləməsi xeyli ləngiyib. Qeyd olunur ki, 2025-ci ilin birinci rübündə "ərazi qazancları" azalıb.

Kəşfiyyat məlumatlarına görə, 2025-ci ilin martında rus qoşunları Ukraynanın təxminən 143 kvadrat kilometr ərazisini ələ keçirib. 2024-cü ilin noyabr ayında isə Rusiya 700 kv.km-dən çox ərazini işğal etmişdi. O vaxtdan bəri Rusiyanın irəliləyiş tempi aydan-aya azalır. 2025-ci ilin martında rus qoşunlarının əsas irəliləyişi Donetsk bölgəsində olub.

"Rusiya əməliyyat mövqeyini yaxşılaşdıra bilmədi. Ukrayna qüvvələri də Pokrovsk ətrafındakı bəzi əraziləri geri alaraq taktiki əks-hücumlar həyata keçirib", - hesabatda bildirilir.

Rusiya rəhbərliyi Ukraynada atəşkəslə bağlı fikirlərə açıq mövqe sergiləyib. Rusiya Prezidenti Vladimir Putin atəşkəsin vacibliyini qəbul edir, lakin bu qərarın verilməsi üçün hələ də cavabsız qalan bir sıra məsələlər mövcuddur.

Musavat.com xəbər verir ki, bu barədə Kremlin sözçüsü Dmitri Peskov məlumat verib. "Prezident atəşkəsin zəruriliyini anlayır, lakin bu qərardan əvvəl "havada qalan" suallara cavab tapmaq lazımdır", - deyə Peskov vurğulayıb. Kreml rəsmisi əlavə edib ki, bu məsələlər Ukraynanın hərbiləşdirilməsi ilə bağlı planlarla da birbaşa əlaqəlidir: "Söhbət Kiyevin gələcəkdə hərbi potensialın artırılması istiqamətindəki planlarından gedir". Rusiya tərəfi bu məsələlərin aydınlaşdırılmasını atəşkəs qərarı üçün əsas şərt kimi görür. Rusiya Silahlı Qüvvələri yalnız Ukraynadakı hərbi obyektlərə zərbələr endirir, sosial obyektlərə heç bir zərbə endirilmir.

APA-nın Moskva bürosu xəbər verir ki, Kremlin mətbuat katibi Dmitri Peskov Ukraynanın Krivoy Roq şəhərinə zərbələr endirməsi nəticəsində yaranan vəziyyəti şərh edərkən deyib.

"Burada mən bütünlüklə bizim Müdafiə Nazirliyinin bəyanatlarına istinad etməyi təklif edirəm. Bizim ordumuz istisnasız olaraq hərbi və hərbi obyektlərin yaxınlığındakı hədəflərə zərbələr endirir. Heç bir sosial obyektlərə və sosial infrastruktur obyektlərinə zərbələr endirilmir", - Kreml sözçüsü Ukraynanın Rusiya ordusunun Krivoy Roq şəhərindəki mülki obyektlərə zərbə endirdiyi ilə bağlı ittihamlarını rədd edib. Qeyd edək ki, Ukrayna tərəfi aprelin 4-də Rusiya ordusunun Krivoy Roq şəhərinə hücumu nəticəsində 19 nəfərin öldüyünü, onlardan 9 nəfərinin uşaq olduğunu açıqlayıb. Rusiya Müdafiə Nazirliyi isə RF Silahlı Qüvvələrinin Krivoy Roqda Ukrayna Silahlı Qüvvələri komandirləri və Qərb təlimatçılarının görüşünün keçirildiyi yerə hücum etdiyi barədə məlumat yayıb.

**AĞ Partiya başqanının müavini, politoloq Kamran Məmmədli hesab edir ki, müharibəni indiki zamanda dayandırmaq Putin üçün arzuolunan deyil. O, "Yeni Müsavat"a deyib ki, müharibənin indiki zamanda dayandırılması Rusiya daxilində zəiflik və məğlubiyyət kimi qəbul oluna bilər:** "Rusiya cəmiyyətində "qalib lider" imici uzun illərdir ki, Putinin legitimliyinin əsas dayaqlarından biridir. Əgər o, müharibəni qələbəsiz, atəşkəs adı ilə dayandırarsa, bu, daxildə onun nüfuzuna ağır zərbə vura və elita daxilində parçalanmalara yol aça bilər".

**Politoloq bildirib ki, 3 il davam edən müharibədə yüz minlərlə insan həlak olub və bunun nəticəsində də güzəştli atəşkəs müqaviləsinin bağlanması Putinin ilkin hədəflərinin baş tutmaması kimi qəbul olunacaq:** "Eyni zamanda müharibədən geri addım atmaq Kreml üçün təhlükəli presedent yarada bilər. Bu, Rusiyanın digər bölgələrdəki (məsələn, Qafqazda və ya Mərkəzi Asiyada) təsir gücünü də sual altına sala bilər. Zatən Rusiya həmin bölgələrdə müharibənin nəticəsi olaraq güc itirməkdədir.

Biz bunu Qazaxıstan, Ermənistan, Suriya və Azərbaycanda da müşahidə edirik. Rusiyanın mümkün uğursuzluğu adları sadalanan və digər Rusiyanın təsiri olduğu ölkələri daha da hərəkətə keçirəcək. Bu səbəbdən Putinə mütləq qələbə və ya ən azından qələbə imitasiyası lazımdır".

**Politoloq hesab edir ki, Putinin 9 may planından Kreml ictimaiyyət qarşısında qələbə ruhunu saxlamaq üçün istifadə edəcək:** "Böyük ehtimalla Putin bu tarixə qədər cəbhədə müəyyən simvolik uğurlar əldə etməyə çalışacaq. Məsələn, Donetskdə irəliləyiş əldə etmək və ya hansısa yeni strateji nöqtənin ələ keçirilməsi planlaşdırıla bilər. Eyni zamanda televiziyalar vasitəsilə qələbə təbliğatının artırılması, hərbi paradların daha güclü göstərilməsi, hər şeydə qərbin günahlandırılması da daxili auditoriyanı sakit saxlamaq məqsədi daşıyacaq. Trampın atəşkəs və ya sülh planı bu il baş tutmayacaq. Buna hazırda nə Putin, nə də Zelenski hazırdır. Onlardan heç biri ciddi güzəştlərə gedərək məğlub olmuş kimi və ya qələbə əldə etməmiş kimi görünmək istəmir. Bu da məsələnin sülh yolu ilə həll olunmasını mümkünsüz edir. Sülh yalnız bir tərəfin həqiqi mənada ciddi güzəştlərə getməsi ilə mümkün ola bilərdi. Hazırda sülh müqaviləsinin bağlanması real görünmür".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 57 (8667) 8 aprel 2025

# Məşhur "Şəki Qala" tarixə qovuşur - reportaj

## Paytaxtın bu ərazisində yolun genişləndirilməsinə görə obyektlər sökülür

**"Şəki Qala" restoranı arxivə qovuşmağın son günlərini gözləyir. Məşhur "Şəki Qala" restoranı yolun genişləndirilməsi səbəbindən plana düşüb və sökülıəcək. "Yeni Müsavat"ın əməkdaşının verdiyi məlumata görə, hazırda əraziyə texnika gətirilib, hazırlıq işləri aparılır. Nərimanov rayonu, Əhməd Rəcəbli və Uluqbəy küçələrinin kəsişməsində yerləşən dairə artıq ləğv edilmək üzrədir. Hazırda bu istiqamətdə işlər aparılır və "Şəki Qala" restoranının sökülməsi də bu işlərin bir tərkib hissəsidir.**










Məlumat üçün bildirək ki, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi 144 ünvanında yerləşən "Şəki Qala" restoranı 2005-ci ildən fəaliyyət göstərir. Şərq ab-havası, ləziz milli mətbəxi və füsunkar interyeri ilə seçilən bu məkan həm ailəvi, həm də kollektiv tədbirlərin təşkili üçün əlverişli idi. Burada ad günləri, bayramlar, banketlər və digər tədbirlər təşkil edilirdi. Restoran Bakı sakinləri və qonaqlara uzun illərdir ki, xidmət göstərirdi. Onu da deyək ki, Dərnəgül yolu istiqamətindən Keşlə bazarına doğru gedən yol da genişləndirilir. Keşlə bazarı da sökülməkdədir. Bazarın yaxınlığında olan "Andrikot" və bu kimi digər restoranlar artıq sökülüb. Bütün bu yeniliklər əsasən paytaxt ərazisində tıxacların aradan qaldırılması məqsədi daşıyır.

Məlumat üçün deyək ki, 2024-cü ilin may ayından etibarən Əhməd Rəcəbli küçəsində təmir işlərinin aparıldığı bildirilir. Bakı şəhərində yol infrastrukturunun təkmilləşdirilməsi məqsədilə həyata keçirilən layihələr çərçivəsində Əhməd Rəcəbli küçəsində genişləndirmə və yenidənqurma işləri aparılır. Bu işlər nəticəsində bəzi obyektlərin, o cümlədən "Şəki Qala" və "Xal-xal" restoranlarının sökülıəcəyi barədə məlumatlar bildirilirdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) 13 fevral 2025-ci il tarixli açıqlamasına əsasən, yeni tikiləcək yol 2 tərəfli və 6 zolaqlı olacaq. Buna görə də bəzi ərazilərdə genişləndirmə işləri aparılacaq və bəzi iaşə və ticarət obyektlərinin köçürülməsi zərurəti yaranacaq.

Eyni zamanda Nərimanov rayonu, Əhməd Rəcəbli və Uluqbəy küçələrinin kəsişməsində yerləşən dairədə ("Şəki Qala" restoranının qarşısında) aparılan yenidənqurma işləri səbəbindən, 17 mart 2025-ci il tarixindən etibarən 17 və 24 nömrəli marşrutların hərəkət sxemində dəyişikliklər edilib.

Əhməd Rəcəbli küçəsində aparılan təmir işləri çərçivəsində yol boyu frezlənmə, piyada səkilərinin və yol ayrıcının bərpası, həmçinin yeni asfalt-beton örtüyünün döşənməsi işləri həyata keçirilir. Bu tədbirlər vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etməyə yönəlib.

Qeyd edək ki, Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı çərçivəsində də şəhərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və genişləndirilməsi nəzərdə tutulur. Bu plan çərçivəsində əsas məqsədlərdən biri yol şəbəkəsinin inkişaf etdirilməsi və genişləndirilməsidir.

Nərimanov rayonu ərazisində yolların yenidən qurulması və təmiri üçün də vəsait ayrılıb. 15 dekabr 2023-cü il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə Nərimanov rayonundakı yolların əsaslı təmiri üçün 600,000 manat vəsait ayrılıb.

Bakı və Sumqayıt şəhərlərini birləşdirən yeni magistral yol tikiləcək. Bu yolun tikintisi ilə şəhərin şimal giriş-çıxış problemi əsaslı şəkildə həll ediləcək. Sabunçu və Sulutəpə qəsəbələrini birləşdirən dairəvi yol olacaq. Bu layihə şəhər daxilində nəqliyyatın yüngülləşdirilməsinə xidmət edəcək.

Bakı Dairəvi Yolu-1 ilə Ziya Bünyadov prospektini birləşdirən dairəvi yol isə şəhər mərkəzinin yüklənməsini azaldacaq. Mehdiabad-Baksol-Ziya Bünyadov prospekti yolunun tikintisi şəhərin cənub-şərq hissəsində nəqliyyatın axışını yaxşılaşdıracaq. Mehdiabad-Baksol-Ziya Bünyadov prospekti yolunun Binəqədi yoluna birləşdirilməsi isə şəhər daxilində nəqliyyat əlaqələrini gücləndirəcək. Bundan əlavə, Baş Planda Xaqani Rüstəmov küçəsi ilə Ağa Nematulla küçəsini birləşdirən yolun tikintisi var. Bu layihə şəhər mərkəzində nəqliyyatın sıxlığını azaltmağa yönəlib.

Yusif Səfərov küçəsi və Babək prospekti ilə Əhmədbəy Ağaoğlu küçəsi və Xətai prospektini birləşdirən yuxarı keçidlərin inşası da yol hərəkətinin təhlükəsizliyini artıracaq.

Məhəmməd Xiyabani küçəsi və xarici dairəvi yolun kəsişməsində tunel tipli yuxarı keçid, dairəvi yol və yeni yan yolun tikintisi isə cənub istiqamətində nəqliyyatın axışını yaxşılaşdıracaq. Bu tədbirlər nəticəsində Bakı şəhərinin yol şəbəkəsinin uzunluğu 2,300 km-dən 2,668 km-ə çatdırılacaq.

Əlavə olaraq, Bakı Bulvarının cənub istiqamətində Bibiheybətə və şərq istiqamətində Zikhə doğru genişləndirilməsi planlaşdırılır. Bu layihə ilə ümumilikdə 258.5 hektar yeni ictimai yaşıllıq sahələri yaradılacaq və Bakı Bulvarının ümumi uzunluğu 25 km-dən çox olacaq.

❑ **Afaq MİRAYİQ,**
**Fotolar müəllifindir**
**"Yeni Müsavat"**



# Paket çaylar barədə gerçək - kif, bakteriya, daha nələr...

## Həkim dietoloq: "Yalnız istehsalçıya güvənərək paket çayları verə bilərik və..."

**Paket çaylar kimyəvi tərkibə, keyfiyyətsiz yarpaqlara və saxlama şəraitinə görə sağlamlıq riski daşıya bilər. Ona görə də ehtiyatla içmək tövsiyə olunur. Bu barədə Medicina.az yazıb.**

Çay paketlər, ümumiyyətlə, daha ucuz istehsal üsulları ilə hazırlanır. O deməkdir ki, plastik və ya sintetik materiallarla örtülmüş ola bilər. Çay isti su ilə təmasda olduqda kimyəvi maddələr suya keçir və bu da sağlamlığa zərər verə bilər. Bundan əlavə, bəzi çay paketlərində pestisid qalıqları və ya konservantlar ola bilər.

Çaylar daha təzə, yüksək keyfiyyətli yarpaqlardan hazırlanır, torbalı çaylar isə ümumiyyətlə köhnə, emal olunmuş yarpaqlardan hazırlanır. Bu, çay paketinin tərkibindəki antioksidantların miqdarını azaldır. Antioksidantlar bədəni sərbəst radikallardan qoruyaraq xəstəliklərlə mübarizə aparır, ona görə də daha az antioksidant olan çaylar sağlamlıq üçün daha az faydalıdır.

Bildirilir ki, çay paketləri rütubətli mühitlərdə saxlanılırsa, uzun müddət saxlandıqda onların içində bakteriya və ya kif əmələ gəlmə riski var. Bu bakteriyalar çay içməklə orqanizmə keçə və müxtəlif sağlamlıq problemlərinə səbəb ola bilər.

Sirr deyil ki, xüsusən də iş yerlərində həm də rahatlıq səbəbilə paket çaylardan geniş istifadə olunur. Bəs onlar nə dərəcədə təhlükəlidir? Uşaqlara paket çay məsləhətdirmi?

**Tanınmış həkim-diyetoloq, diyetlə bağlı kitabların müəllifi, uzun ömürlülük üzrə ekspert Leyla Zülfüqarlı mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib**: "Biz çayı nəyə görə içməliyik, birinci bu sualı verməliyik. Tərkibindəki vacib maddələrə görə həmişə təzə çay, yəni ilk 5-10 dəqiqə ərzində keyfiyyətini itirmədən içildikdə faydalıdır. Niyə ilk dəqiqələrdə? Antioksidant ağırlığına görə. Təbii ki, tövsiyəmiz odur ki, daha çox bitki çayları içilsin. Çünki bu çaylar ayrılıqda fərqli maddələr ötürürlər ki, onlar orqanizmi bəzi xəstəliklərdən müalicə edə bilir.

O ki qaldı gündəlik rutində istifadə etdiyimiz qara çay və yaşıl çaya, burada da o çayın dəmləmə xüsusiyyətinə əsasən biz tərkibindəki vacib maddələri almaq üçün içirik. Məsələn, qara çay günün birinci yarısında içilir, tərkibindəki antioksidantların zənginliyinə görə orqanizmi toksin maddələrdən (sərbəst radikallardan) qoruyur. Sərbəst radikallar infeksiyalara və viruslara qarşı qoruya bilir, yaşlanmanın qarşısına ala bilir. Paket çaylarla dəmləmə çayları arasında da fərqlər var. Orada istehsal markasına, şirkətə asılı olaraq fikir bildirə bilərik. Paket çaylarının saxlandığı material güvənilən olmaya bilər və təbii çayın tərkibini dəyişə bilər. Yəni paketdə olan çayların paket materiallarının nə qədər keyfiyyətli olması önəmlidir. Bu, daha çox ipək parça materiallarından olmalıdır, sintetik material olmamalıdır ki, tərkibindəki vacib maddələri itirməsin".

**Diyetoloq uşaqlar üçün hazırlanan paket çayların da nə dərəcədə təhlükəsiz olmasına fikir bildirib:** "Uşaqlar üçün özəl çaylar var. Şüyüd, raziyana, köp qovucu və sairə çaylar var. Misal üçün, Almaniya kimi inkişaf etmiş bir ölkədən nümunə versək, orada paket formada olan çaylar uşaqlar üçün özəl hazırlanır. Hər yaş qrupuna uyğun verilir, yəni xəstəliklərdə ən çox o çaylardan istifadə edilir. Əsasən də qrip və digər respirator infeksiyalarla, viruslarla mübarizədə ilk tibbi yardım kimi istifadə edilir. Bizim praktikada əsasən ağrıkəsicilər, antibiotiklərdən istifadə edirik. Amma bildirmək istəyirəm ki, bu cür infeksion xəstəliklərdə belə ilk yardım, yəni dəstəkləyici terapiya çox vacibdir. İki nümunə təqdim etdim. Almaniyanın çay təcrübəsi çox sınaqlardan keçib. Yəni istehsalçıya güvənsək, paket çayları verə bilərik".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 57 (8667) 8 aprel 2025
Aprel

## Bunları bilirsinizmi?

* İnsan bədəninin möcüzələri haqqında nə bilirsiniz?
* Bədənimizdəki damarların ümumi uzunluğu 96 min kilometrdir. Bu uzunluq ilə dünyanı 3 dəfə dolaşmaq olar.
* İnsan gözü o qədər həssasdır ki, əgər dünya düz olsaydı 60 km uzaqdakı şam işığını görə bilərdi.
* İnsan beyni dəqiqədə 1000 kəlmə oxuya bilər.
* İnsan saçı 12 ton çəkisi olan yük qaldıra bilər.
* İnsan bədənindən 30 dəqiqədə çıxan enerji ilə 4 litr su qaynatmaq olar.
* İnsan bədənində şimpanzedə olan qədər tük var. Lakin onların çoxu görünmür.
* İnsan sümüyü qranit kimi möhkəmdir. Sümüklər 9 ton yük qaldıra bilər.
* İnsan beyni kompüter olsaydı, saniyədə 38 katrilyon iş görə bilər. Dünyanın ən güclü komputeri olan "BlueGene" bu rəqəmin 2/1000 görə bilir.
* Körpələrin əksəriyyəti mavi gözlü doğulur. Lakin ultrabənövşəyi işıqların təsirindən rəng dəyişir.
* Bir dırnağın tam böyüməsi üçün 6 ay lazımdır.
* Böyrəklərimizdə 2 milyona yaxın filtr var ki, onlar da hər dəqiqədə 1,3 litr qan təmizləyir.
* Hər bir insanın özünə xas qoxusu var. Bu qoxu ancaq əkizlərdə eyni ola bilər.
* Çox yuxu görmək yüksək İQ səviyyəsindən xəbər verir.

## Tez-tez əsnəmək nəyin əlamətidir?

**Türkiyəli qulaq burun boğaz xəstəlikləri mütəxəssisi prof.dr.Yavuz Səlim Yıldırım, tez-tez əsnəməyin normal olmadığını bildirib. Milli.Az xəbər verir ki, həkim qeyd edib ki, əsnəmə qeyri-iradi bir refleksdir.**

- Əsnəmə fizioloji olaraq yata bilməyən insanlarda, səhər yeni oyandıqda, yatmaq vaxtı çatdıqda müşahidə edilə bilər. Və ya davamlı əsnəyən insanları görmüş ola bilərsiniz. Bu, fizioloji mərhələdən kənar bir xəstəliyin əlaməti kimi qəbul edilə bilər.

- Kifayət qədər yatmasına baxmayaraq əsnəməyə davam edən insanlarda daimi əsnəmə yuxu pozğunluğuna işarədir. Davamlı əsnəmə yuxu pozğunluğundan başqa oksigenin beynə çatmasına mane olan yuxu apnesi və ürək-damar xəstəlikləri kimi xəstəliklərin əlaməti və göstəricisidir. Bu insanlar tez bir zamanda həkimə müraciət etməli və müalicə almalıdırlar.

- Əsnəməyin ictimaiyyət arasında yoluxucu olduğu bilinsə də, dəfələrlə əsnəyən insanlar bunu psixoloji problemlərdən tutmuş ürək xəstəliklərinə qədər bir çox xəstəliyin əlaməti kimi şərh edə bilərlər.

Yuxu zamanı nəfəs darlığı olduqda beyinə və ürəyə oksigen çatmaması infarkt riskini artırır və beyin yuxu ehtiyacını ödəyə bilmədiyi üçün davamlı yatmağa meyl olaraq bir refleks olaraq əsnəmə meydana gəlir. Yəni yuxu apnesi səbəbi ilə kifayət qədər yata bilməyən (oksigen ala bilməyən) beyin bədəninizə hər zaman yatmaq istədiyini göstərəcək.

Yuxu apnesi xəstələri səhərlər yorğun oyanırlar, kifayət qədər yata bilmirlər, işdə daim yatmağa meyllidirlər, konsentrasiyada çətinlik, unutqanlıq və əsəbilik əlamətləri olur. Yuxu apnesi olan insanlar avtomobildə yatıb yol-nəqliyyat hadisələrinə səbəb ola, oturduqları yerdə qəfil yuxuya gedə bilərlər.

Davamlı əsnəyən insanlar əvvəlcə qulaq-burun-boğaz mütəxəssisi tərəfindən müayinə edilməli, problemləri varsa, müalicə olunmalıdır.

# Kofe və süd məhsullarının qadın xəstəliyinə təsiri üzə çıxarılıb



**Qidalanma rasionunda dəyişiklik pis xəstəliklərdən əziyyət çəkən qadınlara fayda verə bilər. Oxu.Az "The Observer" qəzetinə istinadla xəbər verir ki, aparılmış beynəlxalq araşdırma belə bir nəticəyə gəlinib. Endometrioza həsr olunmuş böyük araşdırma qlüten, kofe, süd məhsulları və spirtli içkilərin təsirini üzə çıxarıb. Yeni tədqiqata əsasən, rasionda dəyişiklik endometriozdan əziyyət çəkən qadınların yarısında bu xəstəliyin ağrılarını azalda bilər. 2 599 nəfərin iştirak etdiyi araşdırma göstərib ki, qlütendən istifadəni dayandıranların 45 faizi və süd məhsullarından imtina edənlərin 45 faizi ağrıların azaldığını söyləyib.**

# Sidney reysində insident: sərnişin havada təyyarənin qapısını açmağa çalışdı



**Sərnişin Sidneyə uçuş zaman təyyarənin qəza qapısını açmağa cəhd edib. Bu barədə Oxu.Az "The Guardian" nəşrinə istinadla xəbər verir. İnsident Kuala-Lumpurdan Sidneyə uçan hava gəmisinin göyərtəsində baş verib. Şahidlərin sözlərinə görə, kişi qəfil yerindən cumaraq, əvvəlcə qəza çıxışının arxa qapısını açmağa çalışıb.**

Göyərtə bələdçiləri onu öz kreslosunda oturtsalar da, sərnişin yerində durmayıb və qəza çıxışının digər qapısını açmağa cəhd edib. Bu zaman digər sərnişinlər və ekipaj üzvləri xuliqanı yenidən sakitləşdirməli olublar. Kişi müqavimət göstərərək, onlardan birini boğmaq qərarına gəlib. Təyyarə endikdən sonra polis onu saxlayıb. Kişinin 46 yaşlı İordaniya vətəndaşı olduğu üzə çıxıb. Məhkəmə qarşısına çıxacaq xuliqanı belə bir qanun pozuntusuna görə 10 il həbs cəzası gözləyir.



## On gün fiziki hərəkətsizlik beyin üçün zərərlidir

**Missuri Universitetinin alimləri müəyyən ediblər ki, cəmi 10 gün fiziki aktivsizlik siçovulların beynində Altshemyer xəstəliyi ilə əlaqəli erkən dəyişikliklərə səbəb ola bilər. Oxu.Az xəbər verir ki, araşdırmanın nəticələri "Journal of Applied Physiology" nəşrində dərc edilib. Eksperiment göstərib ki, 10 gün ərzində hərəkətdən məhrum olan siçovulların beynin yaddaş və öyrənmə üçün cavabdeh olan hipokampus bölgəsində sərbəst radikalların hasil edilməsi artıb.**

Alimlər izah ediblər ki, sərbəst radikallar oksidləşmə yolu ilə hüceyrələrə zərər verən oksigenin aktiv formalarıdır. Bundan əlavə, tədqiqatçılar 10 günlük fiziki hərəkətsizlikdən sonra gəmiricilərin beyinlərində Altsheymer xəstəliyi ilə əlaqəli spesifik zülalların səviyyəsinin artdığını aşkar ediblər. Alimlərin fikrincə, müntəzəm fiziki fəaliyyət insanın həm fiziki, həm də psixi sağlamlığı üçün həlledici önəm daşıyır.

## Qripə qarşı saqqız hazırlandı



**Pensilvaniya Universitetinin alimləri "Lablab purpureus" lobya növündən düzəldilmiş, ağız boşluğunda iki sadə herpes virusu və iki qrip növünü neytrallaşdıra bilən saqqız hazırlayıblar. Oxu.Az xəbər verir ki, tədqiqat nəticələri "Molecular Therapy" jurnalında dərc edilib. İxtir edilmiş saqqızda təbii şəkildə lobyada olan fril proteini var. Bu protein viruslar üçün "tələ" kimi çıxış edərək onların ağız boşluğundakı qatılığını effektiv şəkildə azaldır. Laboratoriya testləri göstərib ki, cəmi 40 milliqram aktiv maddə virus yükünü 95%-dən çox azalda bilər. Saqqız artıq ABŞ Səhiyyə Nazirliyinin FDA (Qida və Dərman İdarəsi) standartlarına uyğunluq yoxlamasından keçib. Tədqiqatçılar onun təhlükəsiz olduğunu bildiriblər.**

## Smartfon kişilər, yoxsa qadınlar üçün daha çox ziyandır?



**Beynəlxalq alimlər qrupu aşkar edib ki, smartfon istifadəsinin təhlükəliliyi cinsindən asılı olaraq dəyişir. Tədqiqat göstərib ki, qadınlar kişilərlə müqayisədə internetdə daha çox narahatlıq və mənfi qarşılanma qorxusu yaşayır. Oxu.Az xəbər verir ki, bu barədə Avropa Psixiatriya Assosiasiyası (EPA) məlumat yayıb. Araşdırmada orta yaşı 26 olan 400 nəfər iştirak edib. İştirakçılar smartfon asılılığı, emosional narahatlıq və sosial narahatlıq səviyyəsini müəyyən etmək üçün müxtəlif testlərə cəlb olunublar.**

Nəticələr göstərib ki, qadınlar kişilərdən daha çox telefonla vaxt keçirir və sosial şəbəkələrdə digər istifadəçilərdən gələ biləcək mənfi reaksiyalara görə daha çox stres yaşayırlar. Qadınlar smartfonun həddindən artıq istifadəsindən daha çox zərər görürlər. Buna görə də onların rəqəmsal mühitdəki təcrübələrinə xüsusi diqqət yetirmək və dəstək tədbirlərinə hazır olmaq lazımdır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Emil SALAMOĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 1.500